## Şuşada daha 15 yaşayış binasının inşasına dair açıq tender elan olunub



**Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi Cənub yaşayış zonasında salınacaq 23 binalı yaşayış massivinin qalan 15 binasının inşası üzrə açıq tender elan edib.**

Bu barədə idarədən bildirilib.

Məlumata görə, tenderə tikinti sahəsində müvafiq lisenziyası və təcrübəsi, maddi-texniki bazası olan şirkətlər dəvət olunur. İnşası nəzərdə tutulan binaların 3-5 mərtəbəli olmaqla, şəhərin Baş planına uyğun və avto dayanacaqla təmin olunması nəzərdə tutulur. Şirkətlər avqustun 9-na qədər hüquqi sənədləri, avqustun 18-nə qədər isə təklifi və təklifin təminatı sənədlərini isə idarəyə yollaya bilərlər.

*Xatırladaq ki, iyunun 23-də Şuşa şəhərində salınan yaşayış massivinin 8 binasının inşasına dair tenderin qalibi ictimaiyyətə elan olunub.*



## Türkiyə və Ukrayna hərbi nümayəndə heyətləri görüşüb

**Dünən Ankarada Türkiyə və Ukrayna hərbi nümayəndə heyətləri arasında görüş keçirilib.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, görüş zamanı ikitərəfli, regional müdafiə və təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.


№ 116 (5638), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 5 iyul 2022-ci il (çərşənbə axşamı)





# Azərbaycana meymunçiçəyi test dəsti gətirildi

Bu barədə ÜST-ün Azərbaycan Nümayəndəliyindən bildirilib

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Ölkə Ofisi ehtiyac yarandığda istifadə olunması üçün Azərbaycana 3000 meymunçiçəyi test dəsti təhvil verib.**

Bu barədə ÜST-ün Azərbaycan Nümayəndəliyindən bildirilib.

Qeyd edilib ki, Azərbaycanda hələ ki, meymunçiçəyi xəstəliyinə yoluxma halı müşahidə olunmayıb, lakin 30 iyun 2022-ci il tarixinə olan məlumata əsasən, 58 ölkədə 5322 virusa yoluxma və bir ölüm halı qeydə alınıb. "Azərbaycan ÜST-dən bu test dəstlərini əldə edən ilk ölkələrdən biridir və sözügedən vasitələr yoluxma hallarının aşkarlanmasına və xəstəliyin yayılmasının qarşısının alınmasına yönəlmiş ictimai səhiyyə səylərinin müəyyənləşdirilməsinə kömək edəcək.

(səh.2)



## Prezident İlham Əliyev 2022-ci ilin dövlət büdcəsinə dəyişiklikləri təsdiqlədi

**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanuna dəyişiklik edilməsi barədə qanunu təsdiqləyib.**

Dəyişikliklə 2022-ci il dövlət büdcəsinin gəlirləri 29 197 800,0 min manat, xərcləri 32 303 800,0 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 28 167 624,0 min manat, yerli gəlirləri 1 030 176,0 min manat, mərkəzləşdirilmiş xərcləri 31 233 684,0 min manat, yerli xərcləri 1 070 116,0 min manat) məbləğində təsdiq edilib.

## Ermənistanda bəzi qüvvələr baş nazirin evinə basqın edirlər

Çavuşoğlu: "İstənilən halda Azərbaycanla Ermənistan arasında Zəngəzur dəhlizi reallaşmalıdır"



**Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasını istəyirik.**

Trend bildirir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.

Nazir bildirib ki, Azərbaycan və Ermənistan arasında əldə olunan razılığa əsasən, reallaşdırılmalı olan Zəngəzur dəhlizi və digər infrastruktur layihələri həyata keçməlidir. "Çünki Ukrayna müharibəsindən sonra Orta Dəhliz strateji önəm qazanıb. Ermənistan diasporu bölünmüş haldadır. Onların bir qismi heç bir şəkildə normallaşmaya dəstək vermək istəmir, digər bir qismi isə dəstəkləyir. Ermənistanın içindəki bəzi qüvvələr baş nazirin evinə basqın edir, ciddi təzyiq göstərirlər. Bu da Ermənistanın Azərbaycan və Türkiyə ilə normallaşma prosesində cəsur bir addım atmasına maneə yaradır", - deyə M.Çavuşoğlu qeyd edib.

# Bakı ABŞ-a güvənir

Vaşinqton Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin hazırlanmasına töhfə verə bilər



**Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenə müstəqillik günü ilə bağlı təbrik məktubu ünvanlayıb.**

Dövlət başçısı vurğulayıb ki, rəsmi Bakı Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması prosesinə ABŞ-ın dəyərli töhfə verə biləcəyi qənaətindədir.

Ölkə rəhbəri bəyan edib ki, Azərbaycan tərəfi Cənubi Qafqazda davamlı sülhün, iqtisadi tərəqqinin bərqərar olması üçün əlverişli şəraitin formalaşdığı bir zamanda ABŞ-ın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasında, kommunikasiyaların açılmasında, insanlararası təmasların yaradılmasında mühüm rol oynaya biləcəyinə inanır...

(səh.2)

# Zaman limiti bitir

Qarabağdakı separatçı-terrorçu rejim Azərbaycana hərbi müstəvidə addım atmaqdan başqa çıxış yolu qoymur



**Ermənistan hakimiyyəti və Qarabağ separatçıları Laçın rayonunda qanunsuz yaşayan ermənilərin köçürülməsi yollarını müzakirə edirlər.**

Özünü Qarabağ separatçılarının "ombudsmanı" kimi təqdim edən nümayəndə - Geqam Stepanyan iyulun 1-də deyib ki, Laçının Zabux və Sus kəndlərində yaşayan ermənilər Şuşa rayonunun Kiçik Qaladərəsi və Böyük Qaladərəsi kəndlərinə köçürülə bilər.

(səh.2)



## Türkiyədə həlak olan sürücünün nəşi Azərbaycana yola salınıb

**Türkiyənin Artvin vilayətində baş verən təbii fəlakət zamanı həlak olan sürücü Şahlar Kərimovun nəşi Azərbaycana yola salınıb.**

APA xəbər verir ki, bu barədə Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyasının (ABADA) şöbə müdiri Ruslan Eldaroğlu sosial şəbəkədə məlumat yayıb.

*Qeyd edək ki, bir neçə gün əvvəl Türkiyənin Artvin vilayətində torpaq uçqunu zamanı 99-HY-188 dövlət nömrə nişanlı yük avtonəqliyyat vasitəsinin sürücüsü Şahlar Kərimov həlak olub.*

## Daha 17 nəfər koronavirusa yoluxub, ölən yoxdur




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 17 yeni yoluxma faktı qeydə alınıb, 11 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 793 388 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 783 453 nəfər müalicə olunaraq sağalıb, 9 717 nəfər vəfat edib, aktiv xəstə sayı 218 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 574, hazırkı dövrədək isə 6 972 527 test aparılıb.*

## Azərbaycanda universitet tələbəsi vəfat edib



**Bakı Mühəndislik Universitetinin (BMU) tələbəsi vəfat edib.**

Bu barədə BMU-dan məlumat verilib.

Bildirilib ki, universitetin Pedaqoji fakültəsinin Riyaziyyat və informatika müəllimliyi ixtisasının II kurs tələbəsi Nümayişli Aytac Samir qızı uzun sürən xəstəlikdən sonra vəfat edib.



## "Regionda vəziyyət indi çox kövrəkdir"

Türkiyəli professor: "Heç bir halda müharibəni başladan rəsmi Bakı olmayacaq"

(səh.4)

## Aviabiletlərin satışından gəlir götürmək istəyirlər

Partiya sədri quru sərhədlərinin açılmasını tələb edir

(səh.3)



# MEDİA-da Mediasiya Şurasının İdarə Heyətinin sədri ilə görüş keçirilib

## Görüşdə hər iki tərəfi maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb



**Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov və 13 saylı Mediasiya təşkilatının rəhbəri İlham Mehtiyev ilə görüşüb.**

"Şərq" xəbər verir ki, görüş zamanı Nadir Adilov Mediasiya Şurasının həyata keçirdiyi fəaliyyət haqqında məlumat verib. O, media sahəsində mediatorların hazırlanmasında maraqlı olduqlarını, bununla əlaqədar olaraq media mütəxəssisləri üçün mediasiya kurslarının təşkil olunmasının əhəmiyyətini vurğulayıb.

Əhməd İsmayılov tərəfindən Mediasiya Şurası ilə birgə əməkdaşlıq perspektivlərinin "Media haqqında" Azərbaycan Respublikası Qanunu və media sahəsində qanunvericilik aspektindən təhlil edilməsi, imkanların araşdırılması, təhlillərin nəticələrinə əsasən qurumlararası birgə layihələrin həyata keçirilməsi təklif olunub.

İcraçı direktor MEDİA-nın media sahəsində peşəkarlığın artırılması, o cümlədən mübahisələrin həll edilməsi üçün şura ilə əlaqələrin genişləndirilməsinin vacibliyinə toxunub.

Görüşdə hər iki tərəfi maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# Bakı ABŞ-a güvənir

## Vaşinqton Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin hazırlanmasına töhfə verə bilər

**Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenə müstəqillik günü ilə bağlı təbrik məktubu ünvanlayıb. Dövlət başçısı vurğulayıb ki, rəsmi Bakı Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması prosesinə ABŞ-ın dəyərli töhfə verə biləcəyi qənaətindədir.**

Ölkə rəhbəri bəyan edib ki, Azərbaycan tərəfi Cənubi Qafqazda davamlı sülhün, iqtisadi tərəqqinin bərqərar olması üçün əlverişli şəraitin formalaşdığı bir zamanda ABŞ-ın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasında, kommunikasiyaların açılmasında, insanlararası təmasların yaradılmasında mühüm rol oynaya biləcəyinə inanır: "Eyni zamanda tərəfimizdən təqdim olunan beş prinsip əsasında Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması prosesinə ABŞ-ın dəyərli töhfə verə biləcəyi qənaətindəyik. İşğaldan azad edilmiş ərazilərimizdə Ermənistan tərəfindən basdırılmış minalar burada apardığımız bərpa və yenidənqurma işlərinə ən böyük əngəl olaraq qalmaqdadır. Biz minatəmizləmə işində ABŞ-ın ölkəmizə göstərdiyi yardımı təqdir edirik. Ermənistan-Azərbaycan münaqişəsi zamanı itkin düşmüş 4000-ə yaxın soydaşımızın taleyinin aydınlaşdırılması məsələsində də ölkənizin dəstəyinə böyük ümidlər bəsləyirik".

**Dövlət başçısının məktubunu "Şərq"ə dəyərləndirən politoloq Tural İsmayılov deyib ki, ABŞ Prezidenti Cozef Bayden, eləcə də dövlət katibi E.Blinken tərəfindən Prezident İlham Əliyevə ünvanlanan məktublarda Ağ Evin Azərbaycana maraq göstərdiyi danılmaz fakt kimi ortaya çıxmışdı.** Analitik bildirib ki, postpandemiya dönəmində, eyni zamanda 44 günlük Vətən müharibəsində qazandığımız qələbədən sonra Cənubi Qafqaz regionunda formalaşan yeni iqtisadi-siyasi reallıqlar ABŞ-Azərbaycan münasibətlərini növbəti mərhələyə daşıyıb: "Cənab Prezident İlham Əliyevin ABŞ rəhbərinə göndərdiyi məktubda iki ölkənin münasibətlərinin gələcək konturları ilə bağlı mühüm mesajlar əksini tapıb. Bundan sonra Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması prosesində moderator qismində sadəcə Rusiya, yaxud Avropa İttifaqı deyil, həmçinin ABŞ da hansısa formada çıxış edə bilər. Təəssüflər olsun ki, Amerika tərəfindən ATƏT-in Minsk qrupu ilə bağlı lazımsız addımlar atılmaqda, açıqlamalar verilməkdədir. Amma ümid edirik ki, bundan sonra ABŞ Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında həqiqətən ədalətli vasitəçilik missiyasını yerinə yetirsin. Nəzərə almaq lazımdır ki, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi məsələsində ABŞ daha fəal ola bilər. Bu sahədə Amerikanın kifayət qədər gücü, təcrübəsi və resursları var. Şirkətlər və amerikalı mütəxəssislər dünyanın bir çox coğrafiyalarında fəaliyyət göstərirlər. Azərbaycana da dəstək ola bilərlər".

**İsmayıl Qocayev**

# Azərbaycana meymunçiçəyi test dəsti gətirildi

## Bu barədə ÜST-ün Azərbaycan Nümayəndəliyindən bildirilib




**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Ölkə Ofisi ehtiyac yarandıqda istifadə olunması üçün Azərbaycana 3000 meymunçiçəyi test dəsti təhvil verib.**

**Bu barədə ÜST-ün Azərbaycan Nümayəndəliyindən bildirilib.**

Qeyd edilib ki, Azərbaycanda hələ ki, meymunçiçəyi xəstəliyinə yoluxma halı müşahidə olunmayıb, lakin 30 iyun 2022-ci il tarixinə olan məlumata əsasən, 58 ölkədə 5322 virusa

yoluxma və bir ölüm halı qeydə alınıb.

"Azərbaycan ÜST-dən bu test dəstlərini əldə edən ilk ölkələrdən biridir və sözügedən vasitələr yoluxma hallarının aşkarlanmasına və xəstəliyin yayılmasının qarşısının alınmasına yönəlmiş ictimai səhiyyə səylərinin müəyyənləşdirilməsinə kömək edəcək. Biz ölkələrə nəzarət, təmasların izlənməsi və yoluxmuş xəstələrin izolyasiya olunması daxil olmaqla sınaqdan keçirilmiş ictimai səhiyyə vasitələri ilə dəstək olmağı hədəfləyirik. Erkən diaqnostika bu səyin mühüm hissəsidir", - ÜST-ün Azərbaycandakı nümayəndəsi Dr. Hande Harmancı bildirib.

Bildirilib ki, meymunçiçəyi adətən heyvanlarda müşahidə olunan bir virusun yaratdığı xəstəlikdir. Onun simptomları keçmişdə müşahidə olunan çiçək xəstəliyinin əlamətlərinə bənzəyir, lakin, o, klinik cəhətdən daha yüngüldür (effektiv peyvənd sayəsində 1980-ci ildə çiçək xəstəliyinin kökü kəsilib). Meymunçiçəyi virusu yoluxmuş heyvanlardan insanlara dolayı və ya birbaşa təmas yolu ilə ötürülür. İnsandan insana ötürülmə virusa bulaşmış dəri və ya zədələrlə, o cümlədən üz-üzə və tənəffüs damcıları ilə birbaşa təmasda baş verə bilər.

### Conson Ərdoğana Ukrayna məsələsində göstərdiyi səylərə görə təşəkkür edib

**Boris Conson Ərdoğana Ukrayna məsələsində göstərdiyi səylərə görə təşəkkür edib**

Böyük Britaniyanın Baş naziri Boris Conson Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana Ukrayna məsələsində göstərdiyi səylərə görə təşəkkür edib.

"Report" xarici KİV-ə istinadən xəbər verir ki, parlamentdə çıxış edən Baş nazir qeyd edib ki, mövcud vəziyyətin həllində Türkiyənin rolu mühümdür və bu ölkə mümkün olan hər şeyi edir. "Britaniya minalardan təmizləmə imkanları, eləcə də taxıl ixracında gəmilər üçün sığorta imkanları təklif edirik", - Conson deyib.

Onun sözlərinə görə, Bosfor boğazından istifadə etmək mümkün deyilsə, Ukraynadan taxıl ixracının alternativ yollarını araşdırmaq lazımdır.



# Zəngəzur yolunun önü açılır

## Regionda "3+3 formatı"nda inkişaf ola bilər

**Nihat Müzəffər**

**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov İran İslam Respublikasına rəsmi səfərdə olub.**

**İki ölkənin xarici işlər nazirləri ikitərəfli əlaqələrin inkişafı, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıblar. İranın Xarici işlər naziri Hüseyn Əmir-Abdullahian azərbaycanlı həmkarı Ceyhun Bayramovla birgə keçirdiyi mətbuat konfransında deyib ki, rəsmi Tehran və Bakı arasında münasibətlər anlaşılmazlıqdan sıx əməkdaşlığa keçid edir.**

O bildirib ki, tərəflər bir sıra məsələləri, o cümlədən İran və Azərbaycan arasında əlaqələrin və əməkdaşlığın inkişaf etdirilməsi, iki ölkənin ərazi bütövlüyünün tanınması və dəstəklənməsi məsələlərini müzakirə ediblər.

> "İranla Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafı üçün hər cür şərait var"

Abdullahian söyləyib ki, ölkəsi Azərbaycan və Ermənistan mövcud olan məsələlərin tərəflərin ərazi bütövlüyü və suverenliyinə hörmət əsasında, dialoq və diplomatiya yolu ilə həll edilməsinə tərəfdardır.

Regional formatların zəruriliyini vurğulayan Hüseyn Əmir-Abdullahian Ankara səfəri çərçivəsində Tehranda İran, Azərbaycan və Türkiyə xarici işlər nazirləri səviyyəsində üçtərəfli görüşün keçirilməsi barədə razılıq əldə olunduğunu diqqətə çatdırıb. İqtisadi əməkdaşlıq məsələlərinə gəlincə, o, tərəflər arasında əldə edilmiş bir sıra razılaşmaların İranın energetika nazirinin Azərbaycana səfəri çərçivəsində tam işlənəcəyini vurğulayıb. İranlı nazir tərəflərin Araz çayını və ondan istifadə üzrə mövcud layihələrin həyata keçirilməsini müzakirə etdiklərini deyib: "Son aylar ərzində ölkələr arasında ticarət həcmlərindəki sıçrayış bizi sevindirir və ümid edirik ki, bugünkü danışıqlar nəticəsində özəl və dövlət sektorun iqtisadi-ticari münasibətləri daha da genişlənəcək".

C.Bayramov da öz növbəsində diqqətə çatdırıb ki, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizinin ötürücülük qabiliyyətini artırmağa və Rəşt-Astara dəmir yolunun tikintisinə görə məsuliyyəti öz üzərinə götürməyə hazırdır. Regionda sülhün bərqərar olmasından danışan XİN rəhbəri Azərbaycanın Ermənistan ilə münasibətləri normallaşdırmağa səy göstərdiyini söyləyib. O qeyd edib ki, biz Azərbaycan və Ermənistan arasında nəqliyyat əlaqəsinin və beynəlxalq əlaqənin bərpasına hazır olduğumuzu bəyan etmişik və iki ölkə arasında sərhədin delimitasiya haqqında təklif irəli sürmüşük.

**Azərbaycan XİN başçısının İrana səfərini "Şərq"ə dəyərləndirən politoloq Sədrəddin Soltan bildirib ki, İranla Azərbaycan arasında 44 günlük müharibədən sonra vəziyyət gərginləşmişdi:** "İran Azərbaycana qarşı müxtəlif iddialar və saxta bəyanatlar irəli sürmüşdü. Son hadisələr zamanı İranın Türkiyədə israilli ovuna çıxması və Azərbaycana qarşı fəaliyyəti vəziyyəti gərginləşdirdi. Sonrakı zaman çərçivəsində tərəflər münasibətlərin normallaşmasına dair xeyli danışıqlar apardı.

İran XİN-in Mövlud Çavuşoğlu ilə görüşü zamanı üçtərəfli görüşün siqnalları verilmişdi. Hətta bu görüşün prezidentlər səviyyəsində olacağı da iddia edilir. Bu onu göstərir ki, regionda "3+3 formatı"nda inkişaf ola bilər. Çünki "3+3 formatı" Zəngəzur dəhlizinin açılması, Azərbaycan-Ermənistan sərhədlərinin müəyyənləşdirilməsi və s. deməkdir.

Bu hadisələr gerçək olarsa, İran "3+3 formatı"nda region əməkdaşlığında aktiv iştirak edə bilər. Habelə İran arasında karbohidrogen daşıyıcılıq sahəsində əməkdaşlıq genişlənə bilər.

Bunun birinci mərhələsi Türkmənistan qazının Azərbaycana tranzitə keçməsiylə İrana ötürülməsidir. Həmin qazla İranın 6 əyaləti həmin perspektivdə İran qazının və yüklərinin Azərbaycandan keçməklə Avropaya çatdırılma imkanı var.

Yəni İranla Azərbaycanın arasında iqtisadi əlaqələrin inkişafı üçün hər cür şərait var.

Lakin bunun üçün İran tərəfi müəyyən məsələlərdə siyasi iradə ortaya qoymamalı və Azərbaycanla münasibətdə ikili standartdan çıxış etməməlidir. Əks halda bütün layihələr və vədlər çıxış kimi də qalacaq".

# Moskva sülh prosesini pozmağa çalışır

## Ancaq telefon zəngləri də təsdiq etdi ki, münaqişənin həllinə ən çox dəstək ola biləcək qurum məhz Avropa İttifaqıdır

**İyulun 4-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Söhbət zamanı Brüssel gündəliyinə aid məsələlər müzakirə olunub. Şarl Mişel Cənubi Qafqazda sabitlik, sülh və təhlükəsizliyin təmin olunmasının Avropa İttifaqı üçün vacibliyini vurğulayıb.**





O, Avropa İttifaqının Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində səylərini davam etdirəcəyini bildirib. Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə keçirilmiş üçtərəfli görüşləri, bu çərçivədə əldə olunmuş razılaşmaları qeyd edib. Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində danışıqların real nəticələrə gətirib çıxaracağına ümidvar olduğunu ifadə edib. Dövlət başçısı işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın üzləşdiyi genişmiqyaslı mina problemini qeyd edib. Birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən itkin düşmüş hesab olunan 4000 nəfərə yaxın azərbaycanlının taleyinə Ermənistan tərəfindən aydınlıq gətirilməsinin vacibliyini vurğulayıb.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, Şarl Mişelin bu zəngi son vaxtlar Kremlin fəallaşmasından və Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun İrəvana və Bakıya etdiyi səfərlərdən narahatlığa işarədir:** "Brüssel şübhələnir ki, Moskva işi pozmaq və Avropa İttifaqının Azərbaycanla Ermənistsn arasındakı fəal vasitəçiliyini minimuma endirməyə çalışır. Ona görə də hesab edilir ki, Brüsselin vasitəçiliyi Azərbaycan və Ermənistan üçün faydalıdır. Əgər Bakı və İrəvan bu vasitəçilikdən yararlanmaqda davam edərsə, Kreml Avropa İttifaqını oyundankənar vəziyyətə sürükləyə bilməyəcək".

**Millət vəkili Vüqar Bayramov da vurğulayıb ki, Cənubi Qafqazda sabitlik, sülh və təhlükəsizliyin təmin olunması Avropa üçün prioritet olaraq qalmaqdadır. Telefon danışığında bu, bir daha qeyd olunub:** "Avropa İttifaqı Cənubi Qafqaz ölkələrinin əsas ticarət tərəfdaşı olaraq qalmaqdadır. Aİ-nin ümumi ticarət dövriyyəsində payı Azərbaycanda 36.7, Gürcüstanda 23.9, Ermənistanda 18.0 faizdir. Azərbaycanla Aİ arasında ticarət dövriyyəsi ötən il 15 milyard dollarıdək yüksəlib. Bütövlükdə ixracatımızın təxminən 48 faizə yaxını İtaliyaya yönəlib. Bu isə Avropa İttifaqının Azərbaycan üçün əsas ticarət və iqtisadi tərəfdaş olduğunu göstərir. Eyni zamanda Avropa İttifaqının Cənubi Qafqazda ticarət dövriyyəsinin 2/3-i isə Azərbaycanın payına düşür. Bu baxımdan Azərbaycan da Cənubi Qafqazda Avropa İttifaqının əsas ticarət tərəfdaşıdır. Bölgədə və eləcə də dünyada formalaşan yeni düzən fonunda Avropa İttifaqının Azərbaycana dəstəyinin daha da artması müşahidə olunur. Qurum iqtisadi əlaqələri genişləndirməklə yanaşı, işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, itkin düşmüş şəxslərin tapılması, o cümlədən bərpa və quruculuq işlərində ölkəmizə daha yaxından dəstək olmağı planlaşdırır.

Son Brüssel görüşləri və qarşılıqlı telefon zəngləri də təsdiq etdi ki, münaqişənin həllinə ən çox dəstək ola biləcək qurum məhz Avropa İttifaqıdır. Bu nüfuzlu beynəlxalq təşkilatın rəsmi mövqeyi regionda daha qısa zamanda sülhün formalaşdırılmasına xidmət edir. Digər tərəfdən, həm Azərbaycan, həm də Ermənistan münaqişənin həllində Avropaya etimad göstərirlər. Bu da sülhün əldə edilməsi imkanlarını genişləndirməklə yanaşı, prosesin daha da intensivləşməsinə xidmət edir". Deputat qeyd edib ki, Azərbaycan hər zaman Avropa ilə əməkdaşlığın güclənməsinə önəm verir.

**İsmayıl Qocayev**



# Avropadan Prezidentə dəstək zəngi...

**Səməd Seyidov:**
*“Azərbaycan elə bir səviyyəyə yüksəlib ki, xalqımız, millətimiz üçün səmərəli tərzdə Aİ Şurasıyla münasibətləri təşkil etmək iqtidarındadır”*

**Asim Mollazadə:**
*“Azərbaycanın sülh istəyi Aİ Şurası tərəfindən dəstəklənir”*

**İyulun 4-də Avropa İttifaqı Şurasının ( Aİ ) Prezidenti Şarl Mişel Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Söhbət zamanı Brüssel gündəliyinə aid məsələlər ətrafında müzakirə aparılıb.**

Şarl Mişel Cənubi Qafqazda sabitlik, sülh və təhlükəsizliyin təmin olunmasının Avropa İttifaqı üçün vacibliyini diqqətə çatdırıb. Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə keçirilmiş üçtərəfli görüşləri, bu çərçivədə əldə olunmuş razılaşmaları qeyd edərək, ölkəmizin Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində danışıqların real nəticələrə gətirib çıxaracağına ümidvar olduğunu ifadə edib. Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın üzləşdiyi genişmiqyaslı mina problemini qeyd edib və birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən itkin düşmüş hesab olunan 4000 nəfərə yaxın azərbaycanlının taleyinə Ermənistan tərəfindən aydınlıq gətirilməsinin vacibliyini vurğulayıb.

**Telefon danışığını ”Şərq”ə dəyərləndirən Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) vitse-prezidenti Səməd Seyidovun qənaətincə, Aİ Şurası ilə Azərbaycan əlaqələri getdikcə inkişaf edir:** ”Azərbaycan elə bir səviyyəyə yüksəlib ki, xalqımız, millətimiz üçün səmərəli tərzdə Aİ Şurasıyla münasibətləri təşkil etmək iqtidarındadır. Nə yaxşı ki, Aİ Şurasının rəsmiləri bunu başa düşür. Azərbaycanın regionda sülhün, Avropa dəyərlərinin tətbiqinin tərəfdarı olduğunu anlayır. Ona görə də rəsmi Bakının mövqeyini dəstəkləyir. Hansı istiqamətdən təhlükələr gəldiyi də məlumdur”.

**Millət vəkili Asim Mollazadənin fikrincə, Azərbaycanın həyata keçirdiyi strateji layihələr Aİ ölkələrinin maraqları ilə üst-üstə düşür:** ”Azərbaycanın sülh istəyi Aİ Şurası tərəfindən dəstəklənir. Ölkəmizin bölgədə enerji, nəqliyyat, əməkdaşlıq sistemini formalaşdırmağı Aİ Şurasının da maraqlarına uyğundur. Şarl Mişelin Prezident İlham Əliyevə zəngi və dəstəyinin ifadəsi də bununla əlaqəlidir”.

**Aygün Tahir**

# Aviabiletlərin satışından gəlir götürmək istəyirlər

## Partiya sədri quru sərhədlərinin açılmasını tələb edir






**Rusiya Federasiyası iyulun 15-dən etibarən quru sərhədlərini açacaq və COVID-19-un yayılması ilə əlaqədar tətbiq edilən məhdudiyyətlər ləğv ediləcək.**

Bu barədə Koronavirusun Yayılmasına qarşı Mübarizə üzrə Operativ Qərargah məlumat yayıb. İyulun 14-dən etibarən isə xarici ölkə vətəndaşlarının Rusiya ərazisinə hava və dəniz keçid məntəqələri vasitəsilə girişinə qoyulan məhdudiyyətlər tamamilə aradan qaldırılacaq.

Rusiyanın belə sərhədləri açdığı bir zamanda Azərbaycandakı quru sərhədlərinin hələ də bağlı saxlanması əhali arasında narazılıq yaradıb. Sosial şəbəkələrdə bunun səbəblərinə dair ikili yanaşma var. Bir tərəf quru yolunun açılmamasını Meymunçiçəyi xəstəliyi ilə bağlayır, digər tərəf isə bunu dövlətin təhlükəsizlik məsələsi olduğunu vurğulayır.

**Sərhədlərin bağlı qalmasının dövlət təhlükəsizliyinə və virusa aidiyyəti olmadığını deyən AĞ Partiyanın sədri Tural Abbaslı ”Şərq”ə bildirib ki, bu, sırf biznes məsələsidir:** ”Rusiya və digər ölkələrin sərhədləri açması onların daxili işidir. Təbii ki, onlar bizlə həmsərhəd ölkədir və biz də sərhədləri qarşılıqlı aça bilərik. Amma bizdə hər şey əksinə gedir. Türkiyə ilə olan Naxçıvan sərhədini də bağladılar. Düşünürəm ki, bu hadisə Türkiyədə oxuyan və tətildən evə qayıdan tələbələrə, həmçinin istirahət günlərini digər ölkələrdə keçirmək istəyən insanlara problem yaradır. Təhlükəsizlik və Meymunçiçəyi məsələsinə gəlincə, deyim ki, sərhədlərin açılmamasının bununla əlaqəli olduğunu düşünmürəm. O zaman biz nə qədər ki, Rusiya,İran və Ermənistanla qonşuyuq sərhədlər bağlı saxlamalıyıq.

Meymunçiçəyinə görə hələ heç bir ölkə sərhədlərini bağlamayıb. Fikrimcə, Naxçıvanda olan son quru sərhədimizin bağlanması və sərhədlərin açılmaması aviabiletlərin satışının artırılması məqsədi daşıyır. Bu da hazırkı halda əhaliyə ciddi zərbə vurur. Ona görə də quru sərhədlərini açmasını tələb edirəm”.

**Nihat Müzəffər**

# Gürcüstan "Evə, Avropaya" doğru israrlıdır

## Yaxın dönəmdə Saakaşvilinin həbsi ilə bağlı dəyişiklikləri də görəcəyik



**Gürcüstanın paytaxtı Tbilisidə “Evə, Avropaya” şüarı altında etiraz aksiyaları başlayıb. Aksiya təşkilatçıları deyiblər ki, iyunun 24-də Baş nazir İrakli Qaribaşvilinin istefası və milli razılıq hökumətinin yaradılması ilə bağlı irəli sürdükləri ultimatumun vaxtı başa çatıb.**

Mitinqə Gürcüstanın müxtəlif regionlarından iştirakçılar və bir sıra ali məktəblərin tələbələri də qatılıb. Aksiyanı aparıcı müxalifət partiyalarının nümayəndələri də dəstəkləyiblər.

Məlumat üçün bildirək ki, qonşu ölkədə kütləvi aksiyalar Gürcüstanın Avropa İttifaqına üzvlüyə namizəd statusu almamasından sonra keçirilməyə başlanılıb. Təşkilatçılar hesab edirlər ki, statusun verilməsi üçün Avropa Komissiyasının təqdim etdiyi 12 şərtin yerinə yetirilməsini milli razılıq hökuməti təmin edə bilər.

**Qonşu ölkədə baş verən olayları “Şərq”ə dəyərləndirən Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli deyib ki, Gürcüstanda Avropaya inteqrasiya ilə bağlı müxalifətlə hökumət arasında fikir ayrılığı Avropa Birliyinin qərarından sonra kəskin hal alıb.** Partiya rəsmisi bildirib ki, müxalifət Baş nazir İrakli Qaribaşvilinin istefasını, Avropa Birliyinin 12 şərtini yerinə yetirmək üçün xalqın etimadına malik ”texniki hökumət”in yaradılmasını tələb edir: ”Ancaq bu tələblər yerinə yetirilmədiyi üçün küçə etirazları başlayır. Əslində Gürcüstan özünü çoxdan ”Avropa dövləti” hesab edir. Baxmayaraq ki, onun coğrafi məsafəsi və Cənubi Qafqaz regionunda Rusiya, Azərbaycan, Ermənistan və Türkiyə ilə sərhəddə yerləşməsi kontinental mənsubiyyətlə bağlı suallar yaradır. Qonşu ölkənin qarışması sözsüz ki, Rusiya-Ukrayna müharibəsi ilə bağlıdır. Rəsmi Tbilisi ilk gündən bu müharibədə neytral mövqe tutub ki, bu da Qərbi qane etmir. Rusiyaya qarşı tətbiq edilən sanksiyalar faktiki olaraq təsirsizdir. Bu da Avropanı narazı salır. Neft və qaz satışından daxil olan vəsaitlər günbəgün artır. Rusiya da Ukraynada geri çəkiləne oxşamır. Gürcüstan hakimiyyəti bunları nəzərə alaraq, Rusiya ilə münasibətləri gərginləşdirməyə getmir. Bu durum Qərbə xoş gəlmədiyindən Gürcüstana qarşı ögey münasibət sərgiləyir. Vəziyyətdən yararlanmağa çalışan gürcü müxalifəti isə xalqı küçələrə çıxarır”.

**S.Əsədliyə görə, Gürcüstan müxalifəti əmindir ki, ölkənin Avropa yolunda irəliləməsində ən böyük maneə ”Gürcü Arzusu” Partiyasının qurucusu, milyarder Bidzina İvanişvilidir:** ”Fikrimcə, proseslər hökumətin güzəştə getməsi ilə yekunlaşacaq. Yaxın dönəmdə eks prezident Mixail Saakaşvilinin həbsdə saxlanmasından tutmuş, Ukrayna müharibəsinə münasibətə qədər bir çox məsələlərdə dəyişikliyin şahidi olacağıq”.

**İsmayıl Qocayev**

# Zaman limiti bitir

## Qarabağdakı separatçı-terrorçu rejim Azərbaycana hərbi müstəvidə addım atmaqdan başqa çıxış yolu qoymur

**İsmayıl Qocayev**



**Ermənistan hakimiyyəti və Qarabağ separatçıları Laçın rayonunda qanunsuz yaşayan ermənilərin köçürülməsi yollarını müzakirə edirlər. Özünü Qarabağ separatçılarının ”ombudsmanı” kimi təqdim edən nümayəndə - Geqam Stepanyan iyulun 1-də deyib ki, Laçının Zabux və Sus kəndlərində yaşayan ermənilər Şuşa rayonunun Kiçik Qaladərəsi və Böyük Qaladərəsi kəndlərinə köçürülə bilər.**

Laçın şəhərindən çıxarılacaq ermənilərə gəlincə, onun sözlərinə görə, bu məsələni Ermənistan hakimiyyəti həll edəcək və çox güman ki, onlara Ermənistanda mənzillər veriləcək. Stepanyan bildirib ki, hələ ki Laçın şəhəri, Zabux və Sus kəndlərinin erməni ”sakinləri”nin təxliyəsi üzrə iş aparılmır. Lakin o, həmin ermənilərin Azərbaycanın nəzarətinə keçəcək ərazilərdə qalmasını mümkün hesab etmir. Bununla bağlı müvafiq addımlar atılacağını vurğulayır. Xatırladaq ki, bu il Xankəndini Ermənistanla birləşdirəcək yeni yolun istifadəyə verilməsilə ermənilər Laçın şəhəri və onun kəndlərini tərk edəcəklər. 32 kilometrlik yeni yola Rusiya sülhməramlıları nəzarət edəcək. Laçın şəhərindən yan keçən yeni yol istifadəyə veriləndən sonra Laçın şəhəri və rayonun hazırda rusların nəzarətində qalmış kəndləri Azərbaycanın nəzarətinə qaytarılacaq. Söhbət ”Laçın dəhlizi” adlandırılan 5 kilometr enindəki zolaqda yerləşən Laçın şəhəri və rayonun 6 kəndindən - Qarıkaha, Ağanus, Fətəlipəyə, Kəravuz, Sus, Zabuxdan gedir.

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə deyib ki, Ermənistan rəsmilərinin və Qarabağdakı separatçı-terrorçu rejimin son açıqlamaları Azərbaycana hərbi müstəvidə addım atmaqdan başqa çıxış yolu qoymur. Analitik bildirib ki, Ermənistan tərəfi Laçın dəhlizinə alternativ marşrutun istifadəyə verilməsindən sonra Azərbaycan nəzarətinə keçəcək ərazilərdəki erməniləri Ermənistana yox, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərimizə köçürməyi planlaşdırır:** ”Separatçıların qondarma ”ombudsmanı” bu ermənilərin Şuşanın Böyük Qaladərəsi və Kiçik Qaladərəsi kəndlərinə köçürmək niyyətlərini açıqlayıb. Ermənistanın bunu etməyə çalışdığını yazmışdıq. Bakı Livandan, Suriyadan gətirilən bu ermənilərin Azərbaycan torpaqlarında qalmasına imkan verməməlidir. İrəvan hesab edir ki, Laçın dəhlizinə alternativ marşrutun istifadəyə verilməsinə hələ 1 il yarım müddət qalıb. Razılaşmadakı ”3 il müddətinə” istinad edirlər. Halbuki, Azərbaycan yolun iki ilə istifadəyə veriləcəyini bəyan edib. Bu, Ermənistanın Laçın şəhəri və hazırkı dəhlizin keçdiyi ərazilərin təhvil verilməsi prosesini uzatmaq istəyindən xəbər verir. Zabux kəndində qalan ermənilər də çıxmaq istəmir. Baş separatçı Araik Arutyunyan ”Laçın şəhərini təhvil verəcəyik, lakin Zabux məsələsini həll etmək üçün Rusiya sülhməramlıları ilə danışıqlar aparırıq” deyib. Görünür, bunlar nə sözdən, nə danışıqlardan, nə də razılaşmalardan anlayacaq”.

# Ermənistan təxribatlarla sifariş yerinə yetirir

## Erməni diasporu adıyla regiondakı gərginliyə maraqlı olan qüvvələr var



**Nihat Müzəffər**

**İyulun 4-ü gecə saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs pozulub. Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən erməni bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Dəmirçidam yaşayış məntəqəsi istiqamətində yerləşən Ordumuzun mövqelərini iriçaplı silahlardan intensiv atəşə tutub.**

Qeyd edək ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb. Hazırda qeyd olunan istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

**Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik Şair Ramaldanov “Şərq”ə bildirib ki, dövlətimiz tərəfindən düşmənə lazım olan cavab verilib:** ”Biz qalib olsaq da, hələ də müharibə vəziyyətindəyik. Ona görə ki, nə sülh müqaviləsi var, nə də sərhədlərin delimitasiyası məsələsi həll olunub. Bu da onu göstərir ki, Ermənistan hakimiyyəti məsələlərin həllini hansı yolla olursa olsun gecikdirməyə çalışır.

Biz bilirik ki, Ermənistan hər zaman xarici qüvvələrin sifarişini yerinə yetirib. Müharibədən sonra öz sərhədlərinə qovulan Ermənistan qonşuluq siyasəti yürütməlidir. Lakin görürük ki, erməni diasporu adıyla regiondakı gərginliyə maraqlı olan qüvvələr var.

Bu hadisələrdə Rusiya və Qərb faktorunu müəyyən izlərini görürük. Təbii ki, biz atəşkəsin pozulmasını gözlənilən hadisə kimi qəbul etməliyik.

Lakin atəşkəsi pozan tərəfin neytrallaşdırmaq adekvat cavabdır. Azərbaycan ordusu öz üzərinə qoyulan tapşırığı yerinə yetirir və torpaqların təhlükəsizliyini nəzarətində saxlayır. Ola biləcək təxribatların qarşısını almaq üçün tədbirlər görür. Azərbaycan sülhsevər ölkə olduğunu hər zaman bəyan edib və üzərinə düşən işləri görür. Ermənistan gec ya tez sülhə məcbur ediləcək və bütün məsələlər həllini tapacaq. Lakin son hadisələr onu göstərir ki, Ermənistan gah nala, gah da mıxa vurur.

Belə bir atalar sözü var ki, keçinin buynuzu qaşınanda çobanın çomağına sürtünür. Bizim dəmir yumruğumuz da həmişə hazırdır”.

# Ukrayna müharibəsi ən yaxşı nümunədir

## Finlandiya Kremlin qəzəbinə tuş gəlmək istəmir



**Rusiya Prezidenti Vladimir Putin NATO hərbi infrastrukturunun İsveç və Finlandiyada yerləşdirilməsi halında buna adekvat cavab verəcəklərini deyib. Putin hər iki ölkəni xəbərdar edib.**

Kreml rəhbərinin xəbərdarlığı nəticə verməkdədir. Finlandiyanın Xarici işlər naziri Pekka Haavisto hazırda ölkədə NATO qüvvələrinin yerləşdirilməsinə ehtiyacın olmadığını bildirib. Haavisto fikrini belə əsaslandırıb: “NATO-nun kollektiv təhlükəsizliyinin təmin edilməsi planlarını dəstəkləyirik. Finlandiyanın Rusiya ilə ümumi sərhədi var və indi ora təhlükəsizdir”.

**Siyasi şərhçi Turan Rzayev “Şərq”ə bildirib ki, Finlandiya Ukrayna nümunəsindən ehtiyat edir. Qərbin şirnikləşdirməsinə aldanaraq Rusiya ilə fəsadları ağır olacaq qarşıdurmaya girmək istəmir.** Analitikin sözlərinə görə, prinsip etibarilə, Rusiyanın sözügedən ölkələrlə hər hansı problemi mövcud deyil: “Bunu Rusiya Prezidenti Vladimir Putin də vaxtilə həmin ölkələrə xəbərdarlıq edərkən bəyan etmişdi. Görünür, Kreml Helsinkini bu və ya başqa yolla inandıra bilib. Əlbəttə, Finlandiyanın indiki məqamda NATO-ya üzvlükdən imtina etməsi real deyil. Bunun bir neçə səbəbi var. Birincisi, Finlandiyanın belə düşüncəsi olsaydı, İsveçlə birlikdə Ankaranı narahat edən bütün məsələləri nəzərə alan memorandum imzalamazdı. Türkiyə İsveç və Finlandiyanın NATO-ya daxil olmasına etirazını geri götürüb. Yəni rəsmi Helsinkinin hərbi blok yolundakı ən böyük maneə aradan qalxıb. Finlandiyanın Xarici işlər naziri Pekka Haavisto ölkəsinin NATO-ya üzv olmayacağına dair heç nə deməyib”.

*T.Rzayevin fikrincə, Moskva Finlandiya və İsveçin NATO-ya üzv olmasından daha çox hərbi qüvvələrin bu ölkələrə, Rusiya sərhədinə gətirilməsinə qarşıdır:* “Finlandiya Qərb ordusunu ölkəyə gətirərək, Kremlin qəzəbinə tuş gəlmək istəmir. Moskva isə Finlandiyada özünə yeni cəbhə açılmasını arzulamır. Hazırda Rusiyanın Qərbdən əsas tələbi NATO qüvvələrinin sərhədlərindən uzaqlaşdırılmasıdır”.

**İsmayıl**



**Son aylar təkcə regionda deyil, bütünlüklə beynəlxalq aləmdə çox ciddi siyasi proseslər baş verir. Hər kəsin, az qala, dünyanın Rusiya ilə Ukrayna arasındakı müharibənin bitməsini səbrlə gözlədiyi bir vaxtda yeni münaqişələr üçün zəmin yarandı. İsveç və Finlandiyanın NATO-ya üzvlüklə bağlı iddiaları və dünya dövlətlərinin buna fərqli münasibətləri, habelə, Türkiyə- Yunanıstan gərginliyi üçüncü dünya müharibəsinin başlaya biləcəyi ehtimalını artırır. Ən azından ona görə ki, planetdəki qütbləşmə artıq aydın müşahidə olunur.**

*Türkiyəli professor, siyasi analitik Mehmet Yüce son siyasi proseslərlə bağlı "Şərq"in suallarını cavablandırıb:*

# "Regionda vəziyyət indi çox kövrəkdir"

## Türkiyəli professor: "Heç bir halda müharibəni başladan rəsmi Bakı olmayacaq"

**- NATO-nun Madrid sammitində İsveç və Finlandiyanın Alyansa üzvlüyü barədə bəyanatlar səsləndirildi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə bildirdi ki, həmin ölkələr terrorçuları qaytarmasalar, bu, mümkün olmayacaq. Necə düşünürsünüz, tərəflərin şərtləri yerinə yetirməsi nə qədər realdır?**

- Bu, asan olmayacaq, mürəkkəb prosesdir. Türkiyənin əsas uğurlarından biri həmin dövlətlərin uzun müddət kömək etdiyi ünsürlərin terrorçukimi tanınması və adlarının NATO sənədlərində çəkilməsi, Alyansın onları terrorçu kimi tanımasıdır. Bu, yaxın müddətdə olmasa da, gələcəkdə ciddi nəticəyə səbəb ola bilər. Yəni Türkiyənin maraqlarının təmin olunması ehtimalı böyükdür. Bildiyiniz kimi, Rusiya ilə Ukrayna arasındakı müharibədən istifadə edən ABŞ NATO-nu daha da genişləndirmək istəyir. İsveçlə və Finlandiya Rusiyanın ehtimal olunan hücumundan narahatdırlar. Ona görə də Alyansın "çətiri altına" keçmək istəyirlər. Dediyim kimi, rəsmi Vaşinqton bu məsələdə maraqlıdır. Amma Ankaranın narahatlığı da nəzərə alınmalıdır. Onsuz da həmin dövlətlər hələ üzv olmayıblar. Sadəcə üzvlüyə dəvət ediliblər.Yəni söhbət ancaq prosesin sürətləndirilməsindən gedir. Bütün hallarda Türkiyənin tələbləri yerinə yetirilməlidir. Əks halda Ankara həmin dövlətlərin NATO-ya üzvlüyünə razılıq verməyəcək

**- İsveç və Finlandiya terrorçuları Türkiyəyə təhvil versə və nəticədə NATO-ya üzv olsalar, bu, Ankara ilə Moskva arasındakı münasibətlərə necə təsir edər?**

- Əlbəttə, bunun Rusiyanın ürəyindən olacağını demək düzgün olmaz. Amma nəzərə almaq lazımdır ki, hər ölkənin öz prioritetləri, milli maraqları var. Kreml bunu başa düşməlidir. Çünki Moskva Ankaranı itirmək istəməz. Rusiya ilə Türkiyə bir çox məsələlərdə koordinasiyalı davransa da, bu, həmişə onların maraqlarının üst-üstə düşməsi kimi anlaşılmamalıdır. Düzdür, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya lideri Vladimir Putin "dil tapa bilirlər". Lakin həmişə razılaşmaq məcburiyyətində də deyillər. Məsələn, Rusiyanın Suriyadakı terrorçuları dəstəkləməsi də Türkiyənin xoşuna gəlmir. Odur ki, İsveç və Finlandiyanın NATO-ya ehtimal edilən üzvlüyü də Rusiyanın arzusuna uyğunolmaya bilər. Hətta Kremlin hansısa addımlar atması da mümkündür. Lakin bunun Moskva ilə Ankara arasındakı əlaqələri dərindən sarsıdacağına inanmıram. Çünki regionda hər iki ölkənin bir-birinə ehtiyacı var. Tarixçi İbn Haldunun dediyi kimi, coğrafiya talehdir. Hər iki ölkə bu talehi birgə yaşamalıdır. Bu iki ölkə tarix, coğrafiya və beynəlxalq münasibətlər baxımından koordinasiyalı davranmağa məcburdur. Əlbəttə, bunu Kremldə də yaxşı bilirlər. Rusiyanın Türkiyəyə ehtiyacı var. Ukrayna müharibəsi də göstərdi ki, Moskvanı ən yaxşıbaşa düşən Ankaradır.

**- İsveç və Finlandiya məsələsi Türkiyənin daxili siyasətinda nə cür əksini tapa bilər? Bilirik ki, gələn il prezident seçkiləri keçiriləcək və müxalifət kifayət qədər fəaldır...**

- Türkiyənin ən böyük problemi milli məsələlərdə iqtidarla müxalifətin eyni mövqedən çıxış etməməsidir. Müxalifət bundan istifadə edir və edəcək. Xüsusilə "Ərdoğan artıq geri çəkilir" kimi rəylər yaradıla bilər. Ancaq başa düşmək lazımdır ki, xarici siyasətdə mütləq qələbə yoxdur. Prososeslər ortaq mənfəətlər üzərində qurulur. Müxalifət belə məsələləri diplomatik problem kimi təqdim etmək əvəzinə, tövsiyələrini verməli, hakimiyyəti dəstəkləməlidir. Belə məsələləri daxili siyasi rəqabət naminə şişirtmək nəinki Türkiyənin, bütün Türk dünyasının xeyrinə deyil.

**- Türkiyə ilə Yunanıtan arasındakı gərginliyin nəticəsi barədə nə düşünürsünüz?**

- Bu gərginlik həmişə olub. Məsələ təkcə Yunanıstanla bağlı deyil. Kənar siyasi aktorları da nəzərə almaq lazımdır ki, onlardan da birincisi ABŞ-dır. ABŞ Türkiyənin Suriyadakı imkanlarını məhdudlaşdırmağa çalışır. Ona görə də başqa bir cəbhənin yaradılmasını istəyir. Əvvəllər də oxşar hadisələr olub. Məsələn, Türkiyə Liviyada mübarizə apararkən ermənilər Azərbaycanın Tovuz bölgəsini atəşə tutdular...Yəni yeni cəbhə açmaq bynəlxalq siyasətdə çox istifadə olunan metoddur. Ankara da, əlbəttə, diqqətli davranır. Türkiyə beynəlxalq hüquq çərçivəsində addımlar atır. Amma bu, o demək deyil ki, Yuanıstan həddini aşar, ölkəmizin suverenliyi üçün təhdid yaradarsa, biz səssiz qalacağıq. Əksinə, bu zaman qarşı tərəf lazımi cavabı alacaq. Türkiyə Silahlı Qüvvələrinin təcrübəsi, bacarığı hər kəsə məlumdur. Amma proseslərin müharibə ilə nəticələnəcəyini düşünmürəm.

**- Onda Vaşinqtonun Ukraynadakı senarini Balkanlarda da təkrarlamaq istədiyini deyə bilərik?**

- Əlbəttə. Eyni ilə belədir. Yunanıstan müxalifəti özü də belə düşünür. Ümumiyyətlə, bu, ABŞ-ın çox istifadə etdiyi üsuldur. ABŞ Türkiyənin Suriyada "əl-qolunu bağlamaq üçün" Yuanıstan "kartından" yararlanmağa çalışır. Qərb Yunanıstanı silanlandırmasının əsası kimi isə Rusiya faktorunu göstərir. Bu, həqiqətdir, amma silahlanmanın yeganə səbəbi deyil. Hər kəs başa düşür ki, Yunanıstanın silahlanması həm də Türkiyə ilə bağlıdır. Lakin bu, bizi qorxutmur. Bu sınaqdan da uğurla çıxa bilərik. Türkiyə Silahlı Qüvvələri heç vaxt indiki kimi təcrübəli, hazırlıqlı olmayıb. Biz bunu illərlə terrorçulara qarşı aparılan mübarizədə, Suriyada, Liviyada gördük. Türkiyə Azərbaycanla birlikdə 30 ildə çözülməyən problemi həll etdi. Bu baxımdan Yunanıstanın çox irəli gedəcəyini düşünmürəm.

> "Lakin İrəvan Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik etməyə davam edərsə, lazımi cavabı alacaq"



**- Ukrayna ilə Rusiya arasındakı müharibə bir az da davam edərsə, Çinin mövqeyi necə olar?**

- Bu, proseslərin hansı ssenari ilə inkişaf edəcəyindən asılıdır. Qərb müharibəni uzatmaqla Rusiyanı zəiflətmək istəyir. Rusiya "ofsayta" düşdükdən sonra növbəti hədəf Çin olacaq. Pekin bunu bilir. Əgər Moskva zəifləyərsə, Pekin onun yanında ola bilər. Fəqət Kreml qalib gəlsə, Qara dəniz tamamilə Rusiyanın nəzarətinə keçəcək. Çinin köməyinə isə ehtiyac qalmayacaq. Etiraf etməliyik ki, Rusiya xalqı hakimiyyəti dəstəkləyir. Hakimiyyət savaşın təhlükəsizlik məsələsi olduğuna ictimaiyyəti inandırmağa bacardı. Lakin həm də Rusiyanın gücünün gözləniləndən çox aşağı olduğu məlum oldu. Hərçənd daxili auditoriyanın bundan nə qədər xəbərdar olduğunu bilmirik. Bəlkə də, proseslər tamam fərqli formada təqdim edilir. Çünki media təbliğatla məşğuldur.

**- Belarusun savaşa qoşulacağı ilə bağlı son zamanlar müxtəlif iddialar səslənir. Siz bu barədənə düşünürsünüz?**

- Müharibədən əvvəl Belarusda daxili qarşıdurma oldu. Rusiyanın köməyi olmasa, bəlkə də, hakimiyyət dəyişərdi. Fikrimcə, daxili siyasi mənzərə Belarusun birbaşa aktor olacağına imkan vermir. Çünki iqtidar xalqın dəstəyini qazana bilməyib. Ancaq Rusiya istəsə, təzyiq etsə, Belarus müharibəyə qoşula bilər. Hərçənd Moskvanın ən azı yaxın gələcəkdə buna ehtiyac hiss edəcəyini düşünmürəm.

**- Bilirsiniz ki, artıq İlan adası və bir neçə kənd azad edilib. Bu, müharibənin gələcəyi ilə bağlı nə vəd edir?**

- Ukraynadakı müharibənin gedişi bir çox məqamlardan, o cümlədən ABŞ-ın proseslərə münasibətindən asılıdır. Kiyevə verilən dəstəyə, göndərilən silahların həcminə görə savaşın gedişatı bundan sonra da dəyişə bilər. Yəni biz hələ müxtəlif mənzərələrin şahidi ola bilərik. İlan adasının işğaldan azad edilməsini mütləq qələbə kimi qiymətləndirmək hələ tezdir. Rusiya ordusunun həmin əraziyə qayıtmayacağına kimsə zəmanət verə bilməz. Yəni bəzən Ukrayna, bəzən də Rusiya üstünlüyü ələ ala bilər. Dediyim kimi, bu, Qərbin verdiyi dəstəkdən asılıdır.

**- Bəs Qərbin Kremlə qarşı sanksiyaları nə qədər həlledicidir?**

- Əlbəttə, Rusiyanın iqtisadiyyatı zərbə görüb. Amma bu, taleyüklü məsələ deyil. Çünki indi Qərbin iqtisadiyyatı 40 faiz Rusiyanın enerjisindən asılıdır. Bu, çox ciddi göstəricidir və Rusiyanın əsas "kozurudur". İndi Qərb alternativ enerji mənbələri axtarr. Onlardan biri də Azərbaycandır. Azərbaycan Qərbin enerji mənbəyi olsa, Xəzər dənizi vasitəsilə Qərbə çıxa biləcək. Bu, böyük avantaj olar. Lakin eyni zamanda Rusiyanın Azərbaycana təzyiqləri artacaq. Əgər Qərb alternativ enerji mənbəyi tapa bilsə, Rusiyanın iqtisadiyyatı çökər. Əks halda isə Rusiya iqtisadiyyatı üçün ciddi itkilər gözlənilmir.

**- Türkiyə ilə Ermənistan əlaqələrinin hazırkı durumunu necə qiymətləndirirsiniz?**

- Bu, bir gündə həllini tapacaq məsələ deyil. "Düyünlü" nöqtələr çoxdur. İki dövlətarasındakı münasibətlərin normallaşması İrəvanın tutduğu mövqedən asılıdır. Ermənistan hər şeydən əvvəl Azərbaycanın torpaq bütövlüyünə hörmətlə yanaşmalı, Zəngəzur dəhlizi ilə bağlı düzgün qərar verməlidir. Vətən müharibəsindən sonra Azərbaycan - Ermənistan və Türkiyə - Ermənistan münasibətlərinin normallaşması mərhələsi başlayıb. İndi lazım olan Cənubi Qafqaza sülh və sabitliyin gətirilməsidir. Bunun üçün isə altılıq platforması layihəsi təklif olunub. Bu, bütün region ölkələrinə, ən çox da Ermənistanın özünə sərf edir. Çünki Ermənistan iqtisadiyyatı, demək olar, yalnız diasporun göndərdiyi vəsaitdən asılıdır. Deməli, gələcəkdə daxili böhran dərinləşə bilər. Bu isə həmin ölkəyə daha ağır gələcək vəd edir. Ankara -İrəvan əlaqələri xoş niyyət üzərində qurulub. Fəqət Ermənistan müstəqil qərar verə bilmir. Bu dövlət ya Qərb, ya da Rusiyanın "çaldığı havanı oynayır" Odur ki, Türkiyə- Ermənistan əlaqələrinin normallaşması ikinci dövlət üçün kifayət qədər faydalıdır. Amma dediyim kimi, hər şey İrəvanın sərgiləyəcəyi ritorikadan asılıdır.

**- Eyni zamanda Rusiyanın mövqeyini də nəzərə almaq lazımdır...**

- Əlbəttə. Ermənistanın Rusiyadan icazəsiz qərar verəcəyini düşünmək sadəlövhlük olar. İrəvan qərar qəbul edərkən mütləq Moskva ilə məsləhətləşir. Rusiya xarici işlər naziri Sergey Lavrovun bu günlərdə region ölkələrinə, o cümlədən Türkiyə və Ermənistana səfərləri də normallaşma əlaqələrinin Kremlin nəzarətində altında olduğunu göstərir. Rusiya tarixən eyni siyasəti yeridir: problem yaradır və həmin problemlə regiona nəzarət etməyə çalışır. İndi də Zəngəzur "kartından" bu məqsədlə istifadə etməyə çalışır. Yəni demək istəyirəm ki, Azərbaycan və Türkiyənin hər nə qədər "güclü kartları" varsa, Rusiyanın da "əli zəif deyil". Bütün hallarla orta yol tapılmalıdır. Ən azından Bakı, Moskva və İrəvan üçtərəfli anlaşmanın tələblərini yerinə yetirməlidirlər. Əks halda bundan ən çox ziyan görən Ermənistan olar.

**- Cəbhənin müxtəlif istiqamətlərində son vaxtlar düşmənin təxribatları yenidən intensivləşib. Sizcə,bu, üçüncü Qarabağ müharibəsinin başlanacağına işarədir?**

- Regionda vəziyyət indi çox kövrəkdir. Hər an təxribat ola və buna cavab verilə bilər. Ermənistan daxili və xarici təsirlərlə provokasiyaya əl ata bilər. Məncə, Azərbaycan bu məsələdə təmkinli davranacaq. Heç bir halda müharibəni başladan rəsmi Bakı olmayacaq. Lakin İrəvan Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik etməyə davam edərsə, lazımi cavabı alacaq.

**Kənan Novruzov**

# Qısa müddətdə Qarabağda bu qədər iş görmək uğurdur

## Azərbaycan dövləti təkbaşına işğaldan azad etdiyi ərazilərdə bərpa-quruculuq işləri aparır



**İsmayıl Qocayev**

**İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün bu il əlavə olaraq 470 milyon manat ayrılacaq. Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanuna edilən dəyişikliklərdə əksini tapıb.**

Qanuna əsasən, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasına 2 milyard 670 milyon manat vəsait ayrılacaq. Qeyd edək ki, bundan əvvəl işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2 milyard 200 milyon manat vəsait ayrılması nəzərdə tutulmuşdu. Beləliklə, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsait 21,36 faiz artırılıb.

**İqtisadçı Pərviz Heydərov "Şərq"ə bildirib ki, 2022-ci ildə işğaldan azad edilmiş ərazilərin bərpası üçün 2,2 milyard manat vəsait ayrılıb.** Lakin dəyişiklikdən sonra quruculuq işlərinə ayrılmış vəsait 470 milyon manat artırılıb. Ekspertə görə, ötən il 2,2 milyard dollar vəsait hesabına görülən işlərin səviyyəsi göstərir ki, həqiqətən çox böyük işlər həyata keçirilib: "Füzulidəki beynəlxalq hava limanının tikintisi cəmi 8 aya başa gəlib. İşğaldan azad edilmiş ərazilərdə tikinti işləri, yolların salınması, kommunikasiya vasitələrinin qurulması istiqamətində də ötən müddət ərzində ciddi addımlar atılıb. Deməli, ayrılan vəsait təyinatına uyğun xərclənib. Bu il də quruculuq-bərpa işləri həmin sürətdə, hətta daha artıq tempdə davam etdirilir. Cənab Prezidentin bölgəyə mütəmadi səfərləri, təməlqoyma mərasimləri və açılışlar bunu açıq şəkildə sübut edir. Təbii olaraq bir məqam tez-tez gündəmə gətirilir. Dövlət başçısı da çıxışlarında bu məsələyə toxunur və bəyan edir ki, Qarabağdakı quruculuq işlərinə yerli və xarici şirkətlərin, iş adamlarının maraq göstərməsi, cəlb olunması vacibdir. Ölkə rəhbəri bununla bağlı hətta açıq çağırışlar da edib. Vurğulanıb ki, bölgədə investisiya qoyuluşu üçün bütün kartlar hər kəsin üzünə açıqdır. Hələlik işğaldan azad edilmiş ərazilərdə Azərbaycan şirkətləri ilə yanaşı, qardaş Türkiyəyə məxsus şirkətlər fəaliyyət göstərirlər. Digər ölkələrin şirkətlərinin də bu işdə maraqlı olduqları barədə informasiyalar yayılır".

**P.Heydərova görə, sadəcə, dövlət büdcəsindən ayrılan vəsait hesabına bu miqyasda işləri reallaşdırmaq böyük nailiyyətdir:** "Nəzərə alaq ki, burada söhbət müharibədən çıxmış bir ölkənin büdcəsindən gedir. Azərbaycan dövləti təkbaşına işğaldan azad etdiyi ərazilərdə bərpa-quruculuq işləri aparır. Özü də bunun üçün heç bir dövlətin, hansısa beynəlxalq maliyyə qurumlarının yardımına ehtiyac duymur. Bu, əslində qeyri-adi haldır. Torpaq qatına qədər yandırılmış, viran qoyulmuş ərazilərdə qısa zamanda genişmiqyaslı işlər görmək ciddi uğurdur. Buna rəğmən, xarici şirkətlərin Qarabağdakı işlərə cəlb olunması yaxşı olardı. Bu, ən azından görülən işlərə dəstək, stimul sayılardı. Ancaq bəllidir ki, investorlar ilk növbədə mövcud riski dəyərləndirir, təhlükəsizlik amilini göz önünə gətirir. Şübhəsiz, yaxın gələcəkdə xarici şirkətlərin qorxusuz, rahat şəkildə bölgəyə investisiya yatıracağının şahidi olacağıq".

**Şəymən Bayramova**

**"Azərbaycana, dövlətimizə qarşı bu gün də kiberfəzada ciddi təhdidlər var və bu təhdidlərə qarşı mübarizə aparmaq, dövlətin əsas məqsədidir. Bu məqsədə nail olmaq üçün Azərbaycanda ciddi kadr potensialı formalaşmalıdır. Təsis olunan Kibertəhlükəsizlik Mərkəzi məhz bu məqsədə xidmət edəcək".**

Bu sözləri Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini Fərid Əhmədov deyib.



# Azərbaycana qarşı kiberfəzada ciddi təhdidlər yaranıb

## Bu sahədə kadrların hazırlanması ölkənin bir nömrəli mövzusuna çevrilir

Onun sözlərinə görə, Azərbaycan Kibertəhlükəsizlik Mərkəzində, təxminən, 1 000-ə yaxın mütəxəssisin hazırlanması nəzərdə tutulur: Mütəxəssis hazırlığı təxminən 3 il müddətini əhatə edəcək. Hazırlığı bilavasitə "Technion" Universitetinin professor-müəllim heyəti həyata keçirəcək".

Ekspertlər isə hesab edir ki, informasiya təhlükəsizliyi üzrə kadrların hazırlanması çox mühümdür, lakin bu kadrların Azərbaycanda qalıb işləməsi üçün liberal, sivil mühitin olması zəruri şərtdir, məncə.

**Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Şərq"ə açıqlamasında deyib ki, kibertəhlükəsizlik çox geniş, qlobal və demək olar ki, bütün dünyanı narahat edən problemlərdən biridir və hazırda effektiv kibertəhlükəsizlik tədbirlərinin həyata keçirilməsi artıq çox çətin prosesdir.** Onun sözlərinə görə, kibercinayətkarlığın artması bütün dünyada dövlət idarəçiliyi, bank, nəqliyyat, milli təhlükəsizlik və digər sistemlərin təkmilləşdirilməsini, kibermüdafiə tədbirlərinin genişləndirilməsini aktual edir: "Kiberhücumlar qarşısında səmərəli müdafiəni təmin etmək üçün bu sahədə çalışan əməkdaşlar, iş prosesləri və texnologiyalar bir-birini tamamlamalıdır. Bu sahədə çalışan əməkdaşlar informasiya təhlükəsizliyinin əsas prinsiplərini başa düşməlidir, etibarlı şifrələr seçməli, göndərilən və qəbul edilən e-poçt və əlavə edilən fayllara diqqət yetirməli və məlumatların ehtiyat nüsxəsinin digər mənbələrdə etibarlı saxlanılmasını təmin etməlidirlər. Azərbaycanda da müasir informasiya kommunikasiya texnologiyalarının (İKT) geniş tətbiqi bu sahədə davamlı kibertəhlükəsizlik tədbirlərinin həyata keçirilməsinə ciddi əsas verir. Hətta son illərdə bir neçə dəfə Azərbaycan dövlət qurumlarına və informasiya resurslarına yönəlik böyük kiberhücumlar olub. Deməli, bizim dövlət qurumlarında kibertəhlükəsizlik dayanıqlı deyil".

*İnformasiya təhlükəsizliyi sahəsində kadrların hazırlanması məqsədi ilə İsraillə imzalanan müqaviləyə gəldikdə isə O.Gündüz əməkdaşlığı önəmli bir addım hesab edir:* "Azərbaycanın informasiya sektorunda kiber təhlükəsizliyini təmin edən ekspertlər azlıq təşkil edir. Kibertəhlükəsizlik üzrə mütəxəssislərin və təlimçilərin İsrailin adı çəkilən universitetinin metodikası ilə onların professor-müəllim heyəti tərəfindən hazırlanması nəzərdə tutulub.

Bu təlimçilər hesabına gələcəkdə Azərbaycanda kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində mütəxəssis hazırlığı təmin ediləcək.

İkinci Qarabağ savaşı, son dövrlərdə baş verən müharibələr göstərir ki, hər bir ölkənin kiber mühiti, informasiya təhlükəsizliyi milli təhlükəsizlik üçün mühüm faktora çevrilib. Dediyim kimi, Azərbaycanda informasiya təhlükəsizliyi sahəsində əsas problemlərdən biri də kadr çatışmazlığıdır. Ölkəmiz "Kiber Təhlükəsizliyi haqqında Konvensiya"ya qoşulub. Konvensiyanın tələblərindən biri də ondan ibarətdir ki, təhlükəsizliklə bağlı infrastruktur yaradılmalıdır. Bu infrastruktur isə təkcə qanunverici baza deyil. Həm də bura proqram vasitələri, kadrlar, maliyyə vasitələri və digərləri daxildir. Düşünürəm ki, kibertəhlükəsizlik sahəsində dünyada öndə gedən ali təhsil müəssisəsinin Azərbaycanda mütəxəssis hazırlanmasına köməkliyi bu sahədə beynəlxalq təcrübənin, müasir trendlərin, müasir bilik-bacarıqların da ölkəmizə gətirilməsinə kömək olacaq.

İnanıram ki, bu addım ölkəmizdə kiber mühitin inkişafında mühüm rol oynayacaq".



**”Türkiyənin ABŞ-dan F-16 tələbi var”**

Türkiyə xarici işlər naziri deyib ki, ABŞ-la münasibətlərdə nisbətən müsbət ab-hava var: ”Çox güman ki, problemlər həll olunacaq, münasibətlər düzələcək. F-16 ilə bağlı danışıqlarımız çox müsbət keçdi. ABŞ Prezidenti Co Bayden də F-16-ların Türkiyəyə verilməsinin tərəfdarı olduğunu, lakin təsdiqin Konqresdən keçməli olduğunu bildirdi. Demokratlar Partiyasında buna qarşı çıxan bir neçə senator var. Bununla belə, hazırda mənfi mənzərə görmürük”.

**”Suriyada hərbi əməliyyata hazırıq”**

Çavuşoğlu deyib ki, ABŞ-ın YPG-yə yardımından məyus olduqlarını dəfələrlə dilə gətiriblər: ”Milli təhlükəsizlikdən söhbət gedəndə kimin nə dediyinin əhəmiyyəti yoxdur. Türkiyə beynəlxalq hüquq çərçivəsində nə lazımdırsa edir. Rusiya və ABŞ-ın Türkiyəyə heç nə deməyə haqqı yoxdur. Rusiyanın atdığı hər addım bizi qane etmir. Biz bununla bağlı kifayət qədər şəffaf davranırıq”.

# Türkiyənin qırmızı xətləri çəkilib

## Çavuşoğlu Ankaranın iki probleminin olduğunu deyib

**Xarici işlər naziri Mövlud Çavuşoğlu gündəmlə bağlı açıqlamalar verib. Çavuşoğlu bildirib ki, Prezident Rəcəb Tayyib Ərdoğan Madriddə keçirilən dördtərəfli Zirvə toplantısında Türkiyənin qırmızı xətlərini açıqlayıb. Nazir vurğulayıb ki, terrorçu YPG və PYD təşkilatları ilk dəfə NATO sənədində yer alıb. Çavuşoğlu Türkiyənin ABŞ-dan F-16 tələb etməsi ilə bağlı mənfi mənzərənin olmadığını bildirib.**

### ”NATO Sammitinə bir neçə gün qalmış iki ölkə tələblərimizi qəbul etdi”

”Şərq” qəzeti Türkiyə mediasına istinadən xəbər verir ki, Çavuşoğlu Ankaranın iki probleminin olduğunu deyib: ”Birincisi, PKK terror təşkilatı hər iki ölkədə açıq fəaliyyətdədir. İkincisi, sənaye məhsullarına qarşı bizə tətbiq edilən embarqodur. NATO-nun baş katibi Stoltenberq bu prosesə müdaxilə edib. Biz öz layihəmizi göndərdik. NATO Sammitinə bir neçə gün qalmış iki ölkə tələblərimizi qəbul etdi. Lakin bəzi məsələlərdə fikir ayrılıqları qalıb. Madriddə keçirilən danışıqlarda müzakirələr davam etdirilib. Möhtərəm Prezidentimiz Türkiyənin qırmızı xətlərini açıqladı. Artıq PKK da NATO-nun terror siyahısındadır”.

XİN rəhbəri qeyd edib ki, Finlandiya və İsveç NATO üzvlüyü ilə bağlı Türkiyənin milli təhlükəsizlik narahatlıqlarına hörmət etməlidir: ”Baş nazirlər və prezidentlər də daxil olmaqla, terror təşkilatlarına heç bir dəstək verməyəcəklərini deyiblər. Digər tərəfdən, iki ölkə terrorizmlə mübarizə və müdafiə sənayesi ilə bağlı qanunlarını yeniləməlidir. Bağladığımız anlaşma memorandumu bu ölkələr üçün çox faydalıdır. İsveç və Finlandiya terrorizmlə mübarizədə Türkiyə ilə əməkdaşlığa sadiq qalacaqlarını bildiriblər. PKK-nın tərəfdar toplamasının qarşısını alacaqlarını söyləyiblər. Anlaşma memorandumu üçün digər NATO ölkələrinin də orada iştirakını təmin edəcəyik. Yalnız üç ölkə ilə məhdudlaşmayacaq. Bu, yazılı öhdəlikdir. ABŞ və Fransanın bu məsələdə riyakarlığı var. Onlar da bir az ABŞ-a arxalanırdılar. Amma sonda onlar masa arxasında oturmalı oldular”.

### ”Müxalifətimizin niyə narahat olduğunu başa düşə bilmirəm”

Çavuşoğlu bəyan edib ki, əgər iki ölkə vədlərinə əməl etməsə, biz də buna uyğun addımlar atacağıq: ”Mən həqiqətən müxalifətin bu məsələyə yanaşmasını anlamağa çalışıram. Terrorçu qruplaşmalar, FETÖ bu anlaşmadan narahatdır. Yunanıstan narahatdır. İsveç və Finlandiya müxalifəti narahatdır. Müxalifətimizin niyə narahat olduğunu başa düşə bilmirəm. Deputatların rəyi ilə qanun qəbul ediləcək. Biz millət olaraq bu mübarizəni aparırıq. Müxalifət bu iki ölkəyə sözünü çatdırmaq üçün heç vaxt təzyiq göstərməyib. HDP ilə siyasi ortaqlıq qurmaq istəyən partiyalar ikiüzlülük nümayiş etdirirlər”.

### Ukrayna-Rusiya müharibəsinin səbəb olduğu ərzaq böhranı...

O deyib ki, Birləşmiş Millətlər Təşkilatının bununla bağlı obyektiv və yaxşı planı var: ”BMT həm Rusiyanın, həm də Ukraynanın ixrac ehtiyaclarını ödəyə bilər. Plan baş tutsa, Ukrayna taxılını beynəlxalq miqyasda ixrac edə biləcək. Həmin ərazini minalardan təmizləmədən təhlükəsiz xətlər qurmaq mümkün deyil. Hazırda dünyada ərzaq qiymətləri çox yüksəkdir. Biz istəyirik ki, bu problem həm Ukraynanın, həm də Rusiyanın xeyrinə həll olunsun”.

### İsraillə normallaşma addımları...

XİN başçısı vurğulayıb ki, İsraildə hakimiyyət dəyişikliyi münasibətlərimizə mənfi təsir göstərməyəcək: ”Seçkilər oktyabrda başlayacaq. Bundan sonra səfir təyinatlarına başlayacağıq. Biz həmçinin Misirlə münasibətlərdə də istədiyimiz qədər sürətli deyilik. Hər iki tərəfdə eyni sürət olmalıdır”.

**İsmayıl**

# Adam oğurluğuna görə 500 manat tələb etmək təəccüblüdür

## Demək, son cinayət hadisəsi sosial və iqtisadi zəmində baş verib



**Çimnaz Şahlar**

**Bakıda film kimi hadisə yaşanıb. Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, Bakı sakini oğurlanıb, buraxılması üçün 500 manat tələb olunub.**

Nizami Rayon Polis İdarəsinin (RPİ) 25-ci Polis Şöbəsinə müraciət edən Bakı şəhər sakini R.Ş qardaşının cinayət törətdiyi və buraxılması müqabilində ondan 500 manat pul tələb edildiyi barədə iyulun 3-də mobil telefonuna mesaj yazıldığını bildirib.

Polis əməkdaşlarının keçirdikləri təxirəsalınmaz tədbirlər nəticəsində onun qardaşının Ağstafa rayon sakini, əvvəllər məhkum olunmuş H.Muradov və Cəbrayıl rayon sakini Ə.Həsənov tərəfindən oğurlanması müəyyən olunub. Əməliyyat tədbirləri ilə onlar saxlanılıblar. Faktla bağlı Cinayət Məcəlləsinin 144-cü (Adam oğurluğu) maddəsi ilə cinayət işi başlanılıb və araşdırmalar aparılır.

**Hadisəyə münasibət bildirən ”Konstitusiya” Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev ”Şərq”ə açıqlamasında qeyd edib ki, insan oğurluğu elə bir cinayət növüdür ki, hər zaman baş verə bilər:** ”Bu tip hadisələr təkcə Azərbaycan üçün xarakterik deyil. Dünyanın əksər ölkələrində baş verir. Ölkəmizdə adam oğurluğu cinayətləri, xüsusilə də bu formatda geniş yayılmasa da, baş verir. Nəzərə alsaq ki, bu hadisəni həyata keçirənlərdən biri vaxtilə məhkum olmuş şəxsdir, onun əvvəl hansı cinayətləri həyata keçirdiyinə baxmaq lazımdır. Yəqin ki, bu və ya digər formada o, oğurluq cinayətlərilə məşğul olub.

Digər tərəfdən tələb edilən məbləğə baxsaq, çox qəribə situasiya yaranır. Niyə az məbləğ tələb olunub? Çünki bu çox ağır cinayətdir. Belə cinayət əməlinə əl atmış şəxslər adətən yüksək məbləğ tələb edir”.

Hadisənin başvermə səbəblərinə toxunan ekspert söyləyib ki, bu tip cinayətlər, əsasən sosial və iqtisadi zəmində baş verir: ”Görünən odur ki, bu hadisədə iqtisadi səbəblər olub. Çünki bu addım fayda əldə etmək məqsədi daşıyır. Həmçinin öncədən də cinayət işləmiş şəxsdir. O, hələ vərdişlərini unutmayıb. Çünki bu şəxslər müəyyən müddətdə ictimai işlərlə məşğul olmursa, onlarda qısa müddətli gəlirlər əldə etmək həvəsi qalır. Bu zaman onlar bütün yollara əl atmağa çalışırlar. Bunun sonu yeni cinayət törətməyə qədər də gedə bilir.

İstintaq orqanları məsələni araşdırıb bütün səbəb və motivləri müəyyənləşdirəcəklər. Həmin şəxsə ağır cəza verilə bilər. Hələlik gələcəkdə məhkəmə perspektivi olub-olmaması məsələsini gözləyək. Əgər məhkəmədə sübut olunarsa, ağır cəza ilə nəticələnəcək”.

*Ə.Nuriyev hadisəni törədən şəxslərin qısa zaman ərzində saxlanılmasına da diqqət çəkib. O deyib ki, bu, dövlət orqanlarımızın peşəkarlığından xəbər verir:* ”Çox yaxşı haldır ki, qısa müddət çərçivəsində polisimiz tərəfindən həmin şəxslər yaxalandı. Burada polisimiz yüksək peşəkarlıq nümayiş etdirdi. Bu da polisin cinayət hadisələrinə cəld və sürətli münasibətini göstərir. Ümumilikdə, hər hansı bir cinayət hadisəsi baş verirsə, polis və hüquq-mühafizə orqanları adekvat həmlələr edərək, tez bir zamanda cinayətin isti izlərlə aşkar edilməsinə çalışır. İnsanlarımız bilməlidir ki, dövlət qurumları, hüquq-mühafizə orqanları peşəkarlıqla işləyir, onların həyatına, əmlakına qarşı baş verəcək qəsdlərin qarşısını alır”.

**İsmayıl Qocayev**

# Pərdə arxasında yenə Kremlin barmaq izləri görünür

## Özbəkistanda baş verən hadisələr Mərkəzi Asiyaya nəzarət uğrunda geopolitik mübarizənin tərkib hissəsidir

**İyulun 1-dən etibarən Özbəkistanın Qaraqalpaq vilayətində kütləvi etirazlar keçirilir. Buna səbəb ölkə Konstitusiyasına nəzərdə tutulan əlavə və dəyişikliklər olub. Özbəkistan parlamentinin ölkə konstitusiyasına dəyişiklik layihəsində Qaraqalpaq Muxtar Respublikasının referendum yolu ilə müstəqilliyini elan etmək və ya başqa ölkəyə birləşmək səlahiyyətinin əlindən alınması təklif edilib.**

Konstitusiya dəyişikliklərinə etiraz olaraq qaraqalpaqlar muxtar respublikanın inzibati mərkəzi olan Nukusda nümayişlərə başlayıblar. Etirazlar zamanı polislə qarşıdurma yaşanıb. Aksiyalarda 18 nəfər ölüb, 243 nəfər yaralanıb. Yaralananlardan 38 nəfəri hüquq-mühafizə orqanlarının əməkdaşı olub. Hadisə ilə əlaqədar Özbəkistan Prezidenti Şövkət Mirziyoyev nümayişlərin keçirildiyi Nukus şəhərinə gəlib. Mirziyoyev Qaraqalpaqda baş verən son iğtişaşları ölkənin ərazi bütövlüyünü pozmaq cəhdi adlandırıb. O, Konstitusiyanın Qaraqalpaq Muxtar Respublikası ilə bağlı maddələrinə dəyişiklik etməmək barədə qərar verib. Mirziyoyev bildirib ki, Konstitusiya dəyişikliyi layihəsindən Qaraqalpaq maddəsi çıxarılır. Qaraqalpaqların müstəqillik elan etmək hüququ qorunacaq. Bundan əlavə, mobil operatorlar vasitəsilə sakinlərə konstitusiya dəyişikliyinin qaraqalpaqları əhatə etməyəcəyi mesajı çatdırılıb. Lakin ölkə rəhbərinin qərarına əsasən, Qaraqalpaq Respublikasında iyulun 3-dən avqustun 2-dək fövqəladə vəziyyət elan edib. Məlumat üçün bildirək ki, Qaraqalpaqıstan Respublikası Özbəkistanın ən böyük bölgəsidir və ölkə ərazisinin təxminən 40 faizini əhatə edir. Özbəkistanda millətçi hadisələrin eskalasiyası əslində iyunun 25-də başlayıb. Bəzi ekspertlərin fikrincə, Prezident Şavkat Mirziyoyev ilin əvvəlində qonşu Qazaxıstanda baş verən dövlət çevrilişindən sonra konstitusiya dəyişikliyi ilə hakimiyyətini möhkəmləndirmək istəyib. Konstitusiyaya dəyişiklik layihəsi ölkə rəhbərinin 5 il deyil, 7 il müddətinə vəzifədə qalmasını nəzərdə tutur. Digər məqam isə Qaraqalpaq Muxtar Respublikasının müstəqilliyini elan etməsinin qanuni olaraq qadağan edilməsi idi. 9 milyon əhalisi olan Özbəkistanda 1 milyon 500 minə yaxın qaraqalpaq türkü yaşayır. Qaraqalpaqıstan 14 inzibati rayona bölünüb. Muxtar respublikanın 12 şəhəri və 25 şəhər tipli qəsəbəsi var. Muxtar respublika ərazisinin təxminən 85 faizi səhralıqdır. Hazırkı konstitusiyada respublikanın referendum yolu ilə Özbəkistandan ayrılma hüququ var. Muxtar respublikanın bayrağı, gerbi, konstitusiyası, məhkəmə sistemi və parlamenti mövcuddur. İğtişaşlardan sonra Özbəkistan və Qazaxıstan prezidentləri Qaraqalpaqdakı durumu müzakirə ediblər. Qasım-Jomart Tokayev Özbəkistanda sabitliyin təmin olunması istiqamətində həyata keçirilən sərt tədbirləri dəstəklədiyini bildirib. Həmçinin iki ölkə arasındakı strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri müzakirə edilib. Müzakirələrin məhz Qazaxıstan rəhbəri ilə aparılması da təsadüfi deyil. Nəzərə alaq ki, Qaraqalpaqıstan 1930-cu ilədək Qazaxıstan SSRİ-nin tərkibində olub. Özbəkistanda baş verənlərə Rusiyanın mövqeyi Kremlin mətbuat katibi Dmitri Peskov vasitəsilə açıqlanıb. Peskov bildirib ki, Özbəkistanda baş verənlər ölkənin daxili işidir. O, hadisələrə əlavə şərh vermək istəməyib.



**Mərkəzi Asiyada baş verənləri ”Şərq”ə analiz edən Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov qeyd edib ki, Özbəkistanın müstəqil xarici siyasət yürütmək mövqeyindən çıxış etməsi, Qərblə münasibətlərini inkişaf etdirməsi, ABŞ-la Özbəkistan arasında hərbi əməkdaşlığın genişləndirilməsi, Azərbaycan və Türkiyə ilə əlaqələrin sıxlaşdırılması bölgədə maraqları olan geosiyasi gücləri xüsusilə qıcıqlandırmağa başlayıb.** Partiya rəhbərinin sözlərinə görə, son günlərdə Özbəkistanın Qaraqalpaqıstan bölgəsində yaşanan gərginliklər, baş verən qanlı olaylar ”tanış senari”ləri xatırladır: ”Qaraqalpaqlar süni surətdə separatçılığa sürüklənir, təhrik edilir. Bu hadisələr açıq-aşkar kənardan idarə olunan ənənəvi separatçılıq ”senari”sinin tərkib hissəsidir. Postsovet məkanında separatçılığı körükləyən əsas qüvvə isə həmişə keçmiş imperiya mərkəzi olub. İmperiya hansı ölkəni hədəfinə alırsa, ilk növbədə həmin ölkədəki ”beşinci kolon”çulardan, separatçı qüvvələrdən istifadə etməyə çalışıb. Hazırda Qaraqalpaqıstanda baş verənlər də oxşar sxem üzrə cərəyan edir. Özbəkistanın unitar əsaslı güclü dövlətə çevrilmək planlarının qarşısını məhz bu cür ənənəvi üsulla - ”parçala və hökm sür” siyasəti ilə almağa çalışırlar. Mərkəzi Asiyanın iki ən önəmli ölkəsindən biri sayılan Özbəkistanın Turan Birliyinə hədəflənməsini bu yolla əngəlləmək istəyirlər. Lakin ümid edirik ki, Özbəkistan Prezidenti Şövkət Mirziyoyev təcrübəli bir siyasi lider kimi tezliklə ölkəsinin bu çətin mərhələni uğurla adlamasını təmin edəcək. Özbəkistan yenidən sabit inkişaf və yüksəliş yoluna qədəm qoyacaq”.

Ə.Hüseynova görə, bütün özbəklərin milli birlik, həmrəylik nümayiş etdirməsi zəruridir: ”Qaraqalpaqlar da xarici güclərin əlində alətə çevrilməkdən, separatçılığa meyillənməkdən əl çəkməlidirlər. Separatçılıq yolunu seçmək türk dünyasına zərbə vurmaq yolunun seçilməsi deməkdir. Qaraqalpaqlar bu cür kirli oyunların baş tutmasına əsla yol verməməlidirlər. Separatçılıq indiyə qədər heç bir topluma xoşbəxtlik və müstəqillik gətirməyib. İllüziyalardan əl çəkmək lazımdır. Demək olar ki, tamamilə səhra iqliminin hökm sürdüyü, əkinçilik üçün səmərəli və münbit şəraitin mövcud olmadığı bir ərazidə yaşayan qaraqalpaqlar yalnız özbəklərlə birlikdə xoşbəxt gələcəklərini təmin edə bilərlər. Biz azərbaycanlılar da qardaş Özbəkistanda hüzur və əminamanlığın tezliklə bərqərar olması, siyasi sabitliyin təmin edilməsi üçün dua edirik”.

**Siyasi şərhçi Turan Rzayev də ”Şərq”ə bildirib ki, Özbəkistanda baş verən hadisələr Mərkəzi Asiyaya nəzarət uğrunda geopolitik mübarizənin tərkib hissəsidir. Analitik deyib ki, Cənubi Qafqaz kimi, Mərkəzi Asiya da böyük dövlətlərin maraqları daxilindədir:** ”Regionun Avropa ilə Asiyanı birləşdirəcək yeni iqtisadi-ticari marşrutun üzərində olması, enerji resursları ilə zəngin olması, son illərdə bu regionu xüsusilə böyük güclərin diqqət mərkəzinə çevirib. Pərdə arxasında yenə də Kreml var. Özbəkistanda baş verən son hadisələrin pərdə arxasında Rusiya dayanır. Özbəkistan Mərkəzi Asiyanın sayca ən çox əhaliyə malik türk respublikasıdır. 31 milyondan çox əhalisi olan Özbəkistan 448 min 978 kvadrat kilometr əraziyə malikdir. Yəni Qazaxıstandan fərqli olaraq ərazi və əhali balansı bu ölkədə qeyri-müəyyən deyil. Təkcə paytaxt Daşkənddə 2,5 milyon nəfər insan yaşayır. Kreml yaxşı bilir ki, Özbəkistanda nə Qazaxıstan senarisi, nə də Tacikistan-Qırğızıstan gərginliyi bənzəri bir senarini işə sala bilməz. Daşkəndə təsir etmək üçün tək senari az qala bütün keçmiş sovet respublikalarının ortaq problemi olan separatizmi alovlandırmaqla mümkün ola bilər. Əslində Kremlin bu senarini işə salacağı öncədən bəlli idi. Hələ Qazaxıstandakı iğtişaşların ilk günlərində Belarus Prezidenti Aleksandr Lukaşenko Özbəkistanın gələcəyi ilə bağlı ”proqnozlar” vermiş oxşar hadisələrin Özbəkistanda da baş verə biləcəyini açıqca demişdi. Təəssüf ki, Özbəkistan tərəfi Lukaşenkonun bu fikirlərinə həmin vaxt reaksiya verməmişdi. Lukaşenkonu Özbəkistanın daxili işlərinə qarışmaqda günahlandırmışdı. Proseslərdə Rusiyanın barmağının olduğunu göstərən digər fakt isə Rusiya mediasında yayımlanan yazılarda Qaraqalpaqıstanın ”Özbəkistanın Krımı” adlandırılmasıdır”.

# "Heç bir cinayət cəzasız qalmamalıdır"

## Səadət Bənənyarlı: "Azərbaycanda fəaliyyət göstərən ictimai birliklər, vətəndaş institutları erməni vəhşiliklərinin dünyaya çatdırılması yönündə daim çalışır"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

**Azərbaycanın ev sahibliyi etdiyi IX Qlobal Bakı Forumunda çıxışı zamanı cənab Prezident İlham Əliyev Ermənistanın 30 ilə yaxın müddətdə işğal altında saxladığı ərazilərimizdə törətdiyi vandalizm aktları barədə danışdı, erməni vəhşiliklərini beynəlxalq platformanın kürsüsündən dünyaya bir daha çatdırdı.**

Prezident qeyd etdi ki, beynəlxalq təşkilatlar işğal faktına, erməni vəhşiliyinə 30 ildə son qoya bilmədilər, münaqişəni həll etmədilər. Azərbaycan isə ədaləti 44 gün ərzində bərpa etdi: "Bir daha qeyd etmək istəyirəm ki, biz ədaləti bərpa edirdik. Azərbaycan dünyada ən böyük ədalətsizliklə üzləşmiş ölkələrdən biri idi. Ərazimizin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi etnik təmizləmə ilə nəticələndi. Bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Bizim tarixi və dini irsimiz erməni işğalçıları tərəfindən yer üzündən silinib. Bu gün azad olunmuş ərazilərə səfər edənlər bu barbarlığın və vandalizmin şahidi ola bilərlər. Məscidlərimizin təhqiri, mədəni və dini abidələrimizin dağıdılması - bunlar faktlardır və bunu heç kəs görməzdən gələ bilməz. Ermənipərəst qüvvələr nə qədər də bunu görməzdən gəlməyə çalışsalar da, buna müvəffəq ola bilmirlər. Çünki artıq minlərlə, bəlkə on minlərlə insan, o cümlədən xarici qonaqlar, siyasətçilər, parlament sədrləri və üzvləri, jurnalistlər, ekspertlər və sıravi insanlar azad edilmiş ərazilərə səfər ediblər". Ermənistanın, Qarabağa yerləşmiş separatçı qüvvələrin etnik təmizləmə siyasəti, təkcə insanlara qarşı deyil, tarixi, dini abidələrə qarşı da vandal münasibətini artıq bütün dünya görür və bilir. Azərbaycanın Mədəniyyət naziri Anar Kərimov bildirib ki, Ermənistan Beynəlxalq Hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycan xalqına məxsus olan maddi və mədəni irsi dağıdıb. Bu abidələrin dağıdılaraq məhv edilməsinə görə Ermənistan məsuliyyət daşıyır. "Bunu biz demirik, Beynəlxalq hüquq, humanitar normalar deyir. Bu il fevralın 4-də Prezident İlham Əliyev, Fransa Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan Baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilən görüşdə UNESCO-nun təkcə Azərbaycana yox, həm də Ermənistana missiyaların göndərilməsinə dair razılıq əldə edilib. Lakin Ermənistan tərəfinin tutduğu qeyri-konstruktiv mövqeyə görə belə bir missiyanın səfəri bu günə qədər baş tutmayıb. Mən UNESCO-nun fəaliyyətsizliyi və mövqeyini qeyd etmək istəyirəm. Uzun illər boyu Azərbaycan torpaqlarının işğal altında olması nəticəsində orada olan tarixi mədəniyyət abidələrimizin qəsdən dağıdılması və bu haqda əldə etdiyimiz çoxsaylı fotofaktların UNESCO katibliyində müxtəlif forumlara təqdim etməyimizə baxmayaraq təşkilat faktiki olaraq bu əyani sübutlara göz bağlayıb. İşğalçı tərəfə təzyiq və ya bəyanat səsləndirməyib. Təəssüflər olsun ki, bu, təşkilatın siyasiləşdirməsinə dəlalət edir", -nazir deyib. A. Kərimov bildirib ki, Azərbaycan tərəfi dəfələrlə bu məsələni UNESCO müstəvisində qaldırıb: "Bununla yanaşı, Azərbaycan vətəndaş cəmiyyətləri, çoxsaylı QHT -ləri hazırkı Ermənistanda Azərbaycan mədəni irsinin dağıdılması ilə bağlı çoxsaylı materiallar UNESCO komitəsinə təqdim edilib. Ümid edirik ki, UNESCO bu çoxsaylı faktlara səssiz qalmayacaq, texniki missiyanın həyata keçirilməsinə başlayacaq. Burada Azərbaycan tərəfinin, cəmiyyətimizin, QHT-lərin üzərinə böyük məsuliyyət düşür".

**Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu olan UNESCO-nun Azərbaycan tərəfinin bəyanatlarına səssiz qalmasının qəbuledilməz olduğunu deyən Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsinin rəhbəri Səadət Bənənyarlı qeyd etdi ki, Ermənistan 30 ilə yaxın müddətdə mədəniyyət abidələrini məhv etməklə bəşəri cinayət törədib. UNESCO kimi elm, təhsil, mədəniyyət üzrə ixtisaslaşmış bir təşkilatın bunları görməzdən gəlməsi, qurumun siyasiləşməsinin təzahürüdür:**

- UNESCO-nun əsas məqsədi - irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, təhsil, elm və mədəniyyət sahələri üzrə xalqların əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə kömək etməkdir. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq irqi, cinsi, dil və ya dini mənsubiyyətindən asılı olmayaraq qanunvericilik və ədaləti, insanın əsas hüquq və azadlıqlarını təmin etməkdən ibarətdir. 1972-ci ildə UNESCO tərəfindən "Ümumdünya Mədəni və Təbii İrsin Qorunması haqqında Konvensiya" qəbul edilib. Amma biz bu təşkilatın Qarabağda erməni separatçıları tərəfindən dağıdılmış, məhv edilmiş dünya mədəniyyəti və təbii irsin mühafizəsi istiqamətində əməli fəaliyyətini görmürük. Bununla belə, Azərbaycanda fəaliyyət göstərən ictimai birliklər, vətəndaş institutları erməni vəhşiliklərinin dünyaya çatdırılması yönündə daim çalışır, dövlətimizə bu işdə dəstək olur. Qarabağ işğaldan azad edildikdən sonra



ora səfər edən diplomatik korpusların nümayəndələri, xarici qonaqlar, müxtəlif təşkilatların rəhbərləri ermənilərin törətdiyi vəhşilikləri əyani görürlər. Bizim üzərimizə düşən vəzifə işğal müddətində baş vermiş hadisələr barədə beynəlxalq təşkilatları davamlı məlumatlandırmaq, mədəni irsimizin bərpası və ən əsası da cinayətkarın cəzalanması üçün yeni beynəlxalq platformalarda əməkdaşlıq etməkdir. Belə beynəlxalq platformalardan biri, əlbəttə ki, IX Qlobal Bakı Forumu oldu. Forumda cənab Prezident İlham Əliyev bildirdi ki, Qoşulmama Hərəkatı təkcə ölkələr üçün maraqlarını müdafiə etmək və bir-birini dəstəkləmək platforması deyil, beynəlxalq arenada daha fəal rol oynamaq üçün platforma da ola bilər. Azərbaycan bunu görmək arzusundadır və ümid edirik ki, bizim hörmətli qonaqlarımız, Qoşulmama Hərəkatına üzv ölkələrin parlamentlərinin nümayəndələri bu işə töhfə verəcək. Prezident Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçıları ilə məsləhətləşmələrini davam etdirəcəyini də dedi. Hesab edirəm ki, bu məsləhətləşmələr və əməkdaşlıq Azərbaycan xalqının milli sərvətləri, tarixi və mədəniyyətinə qarşı vandalizm aktları həyata keçirmiş Ermənistan dövlətinin və onun Qarabağdakı separatçı qüvvələrinin yaxın zamanda cəzalanması ilə nəticələnər. Heç bir cinayət cəzasız qalmamalıdır. O cümlədən insanlıq əleyhinə törədilən bəşəri cinayətlər.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Təhsil eksperti Məleykə Abbaszadə ilə həm razılaşır, həm razılaşmır

## Yalnız riyaziyyatdan deyil, şagirdlərin ingilis fənnindən də bilgiləri çox zəifdir



**Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə buraxılış imtahanlarında Azərbaycan dili və ingilis dili fənnində daha çox müsbət tendensiyanın müşahidə olunduğunu deyib.**

Onun sözlərinə görə, xoşagəlməz nəticələr riyaziyyat fənni üzrə qeydə alınıb: "Ola bilsin ki, bu il 11-ci sinfi bitirən şagirdlər riyaziyyat fənnini ayrı dərsliklərdən keçiblər, yaxud dərslikləri 7-8-ci sinifdə dəyişib. Burada daha dərində olan problemləri görmək lazımdır. Ümumilikdə isə hansısa detalı götürüb ümumi göstərici kimi ictimaiyyətə təqdim etmək lazım deyil".

Bir çox ekspertlər yaranmış durumun acınacaqlı olduğunu vurğulayır və əlavə edirlər ki, müasir dünyada elm deyəndə, riyaziyyatı nəzərdə tuturlar. Bizim gənclər riyaziyyatdan zəif nəticə göstərirlərsə, deməli, savadsızdırlar. Yəni bunlardan gələcəkdə nə mühəndis, nə innovasiya müəllifi çıxacaq. İnnovasiyalar riyazi modellər əsasında qurulur. Bu, acınacaqlı vəziyyətdir.

**Təhsil eksperti Kamran Əsədov isə "Şərq"ə açıqlamasında konkret səbəbləri açıqlayıb: "Ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticələrini təhlil edəndə görürük ki, son illərdə riyaziyyat fənni üzrə nəticələr digər fənlərlə müqayisədə geridə qalır.** Bunun da bir neçə səbəbi var. 2020-ci ilin mart ayından ölkədə koronavirus pandemiyası səbəbi ilə dərslər onlayn formada tədris olunmağa başladı. Texniki və təbiət fənlərində isə məsafədən tədrisin bir o qədər də keyfiyyətli təşkil olunmadığının şahidi olduq. Nə müəllimlərimiz bu fənləri yüksək səviyyədə tədris edə bildi, nə də şagirdlərimiz keçdikləri bilgiləri detallı mənimsəyə bildilər. Bu fənlər individual çalışma tələb edən fənlər olduğuna görə, məsafədən tədris effektsiz oldu".

Ekspertin sözlərinə görə, riyaziyyat fənni üzrə nəticələrin zəif olması uşaqların götürmə qabiliyyətinin zəif olması ilə əlaqəlidir. Digər bir səbəb isə 1 və 2-ci qrupda abituriyentlərin daha az balla ali təhsil məktəblərinə qəbul olmaq imkanları ilə bağlıdır. Bu qruplara sənəd verən uşaqların əksəriyyəti yüksək bal toplamaqda maraqlı olmurlar ki, minimum keçid balı ilə hər hansı bir ali təhsil ocağına daxil ola biləcəklər.

*K.Əsədov DİM sədrinin ingilis dili fənni üzrə müsbət tendensiyanın müşahidə edilməsi ilə bağlı qeydinin reallığı əks etdirmədiyini deyib. Onun sözlərinə görə, riyaziyyatla yanaşı ingilis dili fənni üzrə göstərilən nəticələr də ürəkaçan səviyyədə deyil:* "Bu da rayonlarda ingilis dili müəllimlərinin 40 faizinin orta ixtisas təhsili müəssisələrini bitirməsi və öz üzərlərində işləməməsi ilə əlaqəlidir. Riyaziyyat və ingilis dili müəllimləri repetitorluğa meyilli olduqları üçün dərslərin keyfiyyətli səviyyədə keçirilməsində və şagirdlərin öyrədilməsində maraqlı olmurlar. Şagirdlərin orta məktəbdəki təhsil bazaları zəif olduğundan sonradan hazırlığa getsələr belə riyyaziyyatı və ingilis dilini yüksək səviyyədə mənimsəyə bilmirlər".

**Şəymən**

# Ukrayna savaşının bitməsi ehtimalı azdır

## Rusiya hərbi əməliyyatların ikinci mərhələsinə başlayıb

**"Rusiya-Ukrayna müharibəsinin tezliklə başa çatacağını proqnozlaşdırmaq çətindir. Amma görünən odur ki, tərəflər buna cəhd göstərir". Bu sözləri "Şərq"ə açıqlamasında siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib.**



O bildirib ki, Qərb dövlətləri müharibənin tezliklə sonlanmasında maraqlıdır: "Savaşın hər gün uzanması Qərb ölkələrinin Ukrayna üçün xərclədiyi pulların da artması deməkdir. Burada nüfuz savaşı gedir. Nə Rusiya, nə ABŞ öz istəyinə nail ola bilməyib. Amerikanın Ukraynadakı maraqları təmin olunmayıb. Ukrayna Prezidenti V.Zelenski İndoneziya vasitəsi ilə Rusiya rəhbəri V.Putinə mesajını çatdırıb. Lakin Rusiya öz istəklərinə nail olanadək hərbi əməliyyatları dayandırmaq fikrində deyil. Reallıq odur ki, müharibə artıq Avropanı da çökdürməyə başlayıb. Xüsusən, Polşa çətin vəziyyətə düşüb, çünki 1,5 milyondan çox qaçqın qəbul edib. Vəziyyət mürəkkəbləşdikcə, Varşava hökuməti ukraynalılara göstərdiyi dəstəyi kəsdi, güzəştləri qaldırdı. Təhlükəni hiss edən Avropa dövlətləri daxilində də müharibə tərəfdarlarının sayı azalmaqdadır".

**C.Nuriyev vurğulayıb ki, Rusiyanın ucuz neftindən, qazından və gübrəsindən məhrum olan Avropada enerji resurslarının qiyməti kəskin bahalaşmaqdadır:** "O səbəbdən həm Ukraynada, həm də Qərb ölkələri arasında savaşın bitməsini arzulayanlar çoxdur. Kiyevin vəziyyəti kifayət qədər ağırdır. Ancaq müharibənin tez zamanda bitməsi ehtimalı azdır. Rusiya hərbi əməliyyatların ikinci mərhələsinə başlayıb. Putin rus hərb-sənayesinin güclənməsindən danışır. Təhlükəsizlik Şurasında Ukraynada aparılan hərbi əməliyyatların gələcəyi müzakirə olunur. Moskva daha uzunmüddətli müharibəyə hazırlaşır. Deməli, Rusiya müharibəni dayandıracaq qədər çöküş yaşamır".

**İmsayıl Qocayev**

# Hər kəs diqqətli olmalıdır

## Adi siqaret kötüyündən belə meşə yanğınları baş verir

**Türkiyənin İstanbul şəhərində baş verən yanğınlar səbəbindən meşələrə giriş qadağan edilib.**



***Ekspert hesab edir ki, nəzarət-müşahidə kameraları ilə insanların hərəkətləri nəzarətdə saxlanmalıdır***

İstanbul Valisi Ali Yerlikayanın məlumatına görə, qadağa 5 iyul tarixindən 31 iyul tarixinədək qüvvədə olacaq. Bununla belə İstanbul vilayəti hüdudlarında istirahət zonaları, təbiət parkları, bağlar, parklar və ekoturizm zonaları, idman, gəzintilərinə çıxmağa icazə verilir. Lakin bu ərazilərdə kabab bişirmək, qaz balonundan istifadə etmək, qəlyan və hər cür od yandırmaq qəti qadağandır.

Qeyd edək ki, yayın qızmar günəşi, artan temperatur, qlobal istiləşmə, istirahət yerlərində insanların səhlənkarlığı və s. bu kimi müxtəlif səbəblərdən Azərbaycan meşələrində də yanğınlar çıxır. Görəsən, dağlıq və meşəlik ərazilərimizdəki təhlükəsizlik necə təmin olunmalıdır? Həmin ərazilərin yanğından mühafizəsi necə təşkil olunur və vətəndaşların üzərinə hansı vəzifələr düşür?

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyevin "Şərq"ə açıqlamasına görə, mövsümdən asılı olmayaraq, həm insanların, həm də aidiyyəti üzrə müvafiq qurumların ərazi üzrə xarakterik olan təbii fəlakətlər, fövqəladə hadisələrə qarşı müdafiə tədbirləri, təhlükəsiz təxliyə planları olmalıdır. Hər bir ərazinin yerləşdiyi coğrafi mühitə uyğun ümumi konsepsiyalar hazırlanmalıdır:** "İstər-istəməz il ərzində mövsümə uyğun olaraq daşqınlar, sürüşmələr, yanğınlar, o cümlədən də digər təbii və texnogen hadisələr baş verir. Ona görə də hər əraziyə uyğun baş verə biləcək xarakterik hadisələri və həmin ərazi üzrə təhlükəsizlik qaydalarına riayət edilməli olduğu təhlükəsizlik qaydaları olmalıdır. Təbii ki, burada söhbət müxtəlif təbii fəlakətlər və fövqəladə hadisələrdən gedir. Vulkan püskürməsi, sürüşmə zonası, meşə sahəsi ətrafında yanğın, sel, daşqın, zəlzələ, qasırğa, tufan və s. hadisələrlə yanaşı, kimyəvi maddələrin istehsalı, neft-qaz partlayış təhlükəsi olan partlayıcı maddələrin istehsalı, daşınması, yanğın, təhlükə riskli istehsalat sahələrinə yaxın ərazilərdə yerləşən insanlar da mütləq həmin ərazi üzrə təhlükəsizlik qaydalarından agah olub, riayət etməlidirlər. İnsanlar təhlükəsiz təxliyə planı, toplanış məntəqəsi, təhlükə risklərinə dair maarifləndirilməlidir".

Ekspertin sözlərinə görə, fövqəladə hadisə riski olan yerlərdə mütləq təhlükəsizlik planı olmalıdır. Aidiyyəti üzrə müvafiq qurumlar, orada yaşayan insanlar, orada xidmət göstərən insanlar, istehsalat obyektləri, turizm obyektləri və yaxud da digər xidmət sahələri təhlükə zamanı insanları necə qorunmaları haqqında mütəmadi olaraq məlumatlandırmalıdır: "İnsanlar həm hadisə zamanı nə edəcəklərini, həm də hadisədən öncə təhlükə riskinin minimuma endirilməsi üçün nələr etməli olduqlarını bilməlidirlər. Bunun üçün müvafiq olaraq dövlət qurumlarının konsepsiyası da olmalıdır. Tədbirlər planı ərazinin yerləşdiyi coğrafi mövqeyin xarakteristikasına uyğun düzəldilməlidir".

Müsahibimizin fikrincə, meşə yanğınlarının qarşısını almaq üçün girişi məhdudlaşdırmaq, insanların istirahət hüquqlarını əllərindən almaq da düzgün deyil. Qoruq olmayan ərazilərdən insanların istifadə haqqı var.

Yanğın və digər bədbəxt hadisələr olmasın deyə insanların əməl etməli olduğu təhlükəsizlik tədbirlərinə gəldikdə isə E.Nurəliyev deyib ki, meşəlik ərazilərdə s. ehtiyatının olması mütləqdir. Nəzarət müşahidə kameraları ilə insanların hərəkəti nəzarətdə saxlanılmalıdır: "Eyni zamanda istirahət edərkən açıq meşə ərazisində oddan istifadə etmək olmaz, bunun üçün xüsusi yerlər var. Bəzi insanlar gedib meşə ərazisində od qalayır, sonra da söndürmədən ərazini tərk edirlər. Nəinki ocaq qalamaq, adi bir siqaret kötüyündən belə meşə yanğını baş verə bilər. Meşəlik əraziyə istirahətə gələn insanlar da, aidiyyəti üzrə müvafiq qurumlar da ərazini təmizləməlidirlər.

Meşə ərazisində hər zaman təmizliyə riayət olunmalıdır. Çünki ərazinin məişət tullantıları ilə zibillənməsi də yanğın təhlükəsi yarada bilər. Yerə şüşə butulkası düşə bilər, günəş şüaları şüşədən keçəndə istilik yaradıb yanğına səbəb ola bilər. Bütün bu qaydalara riayət etmək isə tək vətəndaşların və ya aidiyyəti qurumların üzərinə düşmür. Bunlar hamısı kompleks görülən tədbirlər planıdır. İstirahət məqsədi ilə meşə ərazilərinə gedən vətəndaşlar, o cümlədən də meşəlik ərazilərdə istirahət mərkəzi işlədən sahibkarlar bilməlidirlər ki, sahəsində baş verən yanğınlar çox geniş miqyaslı olur. Ərazinin relyefi o qədər mürəkkəbdir ki, yanğının söndürülməsi çox çətinliklə həyata keçirilir. Əraziyə çoxlu texnikaların, canlı qüvvələrin gəlməsi də çətindir. Yanğının söndürülməsi üçün çoxlu texnika və uzun bir zaman lazım ola bilir. Bu zaman çərçivəsində isə insanlar daha cox zərər çəkə bilər. Buna görə də insanlar təhlükəsizlik tədbirlərinə əməl etməyə öncədən ciddi yanaşmalıdırlar. Müvafiq dövlət qurumları da mütəmadi olaraq maarifləndirilmələr və monitorinqlər təşkil etməli, baş verən pozuntuları vaxtında qeydə almalı və qabaqlayıcı tədbirlər görməklə bu kimi şeylərin qarşısını almalıdır".

**Şəymən**

# Azərbaycanda əhali balıq üzünə həsrət qalıb

## Halbuki, bütün dənizsahili ölkələrdə balıq ən ucuz və əlçatandır

**Balıqlar çaylara, dənizə qayıdır. Azərbaycanda akkreditə olmuş diplomatik korpus və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrinin, ekspertlərin iştirakı ilə bu günlərdə Zəngilan rayonunda Həkəri çayına üç min qızılxallı forel balığı buraxılıb.**



*"Bu insafsızlıqdır, haramçılıqdır. Balıqçılıq sektoru mütləq dövlət nəzarətinə alınmalıdır"*

Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firudin Əliyevin sözlərinə görə, qızılxallı forel balığı yerli və bu su hövzəsinə xas növdür. "Su hövzələrinə balıq buraxılması prosesi ənənə halını alıb. Azad olunmuş ərazilərdə ilk dəfə qızılxallı forel balıqları ötən il ölkə başçısı tərəfindən Bəsitçaya buraxılıb. Respublikanın digər ərazilərində də balıqların suya buraxılışı həyata keçirilir. Məqsədimiz su hövzələrində balıq populyasiyalarının, o cümlədən "Qırmızı kitab"a daxil edilmiş qızılxallı forel balığının populyasiyasının artırılmasına dəstəkdir. Bu il ərzində ümumilikdə 7 milyon balıq körpəsinin su hövzələrinə buraxılması nəzərdə tutulub", - deyə F.Əliyev qeyd edib. Balıq körpələrinin su hövzələrinə buraxılması Qarabağ və Şərqi Zəngəzur ərazisində biomüxtəlifliyin qorunmasına və su hövzələrində bioresursların bərpasına töhfə vermək məqsədi daşıyır. Qeyd edilir ki, balıqların kürütökmə dövrü ilə əlaqədar hər il ölkədə may ayının 1-dən etibarən balıq ovuna dördaylıq moratorium tətbiq edilir. Balıq ehtiyatlarının artırılması üçün bu müddət ərzində bütün qayda və tələblərə riayət edilməlidir. Bundan əvvəl də Azərbaycanın daxili su hövzələrinin bioresurslarının mühafizəsi və bərpasına yönəlmiş genişmiqyaslı "Zəngin hövzələr" layihəsi çərçivəsində IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə iyun ayında Kür çayına və Göygöl gölünə də balıq körpələri buraxılıb. IDEA İctimai Birliyinin məlumatına görə, ETSN rəsmilərinin, IDEA İctimai Birliyi və nazirliyin könüllülərinin iştirakı ilə keçirilən tədbir zamanı 1000 ədəd körpə çəki balığı Kür çayına, 2000 ədəd körpə forel balığı isə Göygöl gölünə buraxılıb. Qeyd edilir ki, ölkənin müxtəlif regionlarında təbii su hövzələrinə balıq buraxılışı ilin sonunadək davam edəcək. "Zəngin hövzələr" layihəsi balıq növlərinin təbii populyasiyasının artırılması, balıqartırma zavodlarında yetişdirilən müxtəlif növ balıq körpələrinin təbii mühitə buraxılması, eləcə də daxili su hövzələrində çirkləndirilmənin azaldılması, qanuni və sivil qaydalarla balıq ovunun təşviqi üzrə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Layihəyə 2020-ci ilin may ayında start verilib. Təkcə ötən il 6 milyona yaxın müxtəlif növ balıq körpəsi su hövzələrinə buraxılıb. Balıqartırma zavodlarında yetişdirilən müxtəlif növ balıqların müntəzəm olaraq təbii su hövzələrinə buraxılması nəsli kəsilməkdə olan növlərin təbii populyasiyasının artırılmasını hədəfləyir. Son onilliklər ərzində Xəzər dənizinin nadir balıq növlərinin populyasiyası insan fəaliyyətinin mənfi təsirləri, o cümlədən çirklənmə, qaçaqmalçılıq və həddən artıq ovlanma nəticəsində məhvolma təhlükəsi həddinə çatıb. Bununla əlaqədar Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycanın və Qafqaz regionunun su faunasının qorunması və bərpası üzrə bir sıra mühüm təşəbbüslər həyata keçirilir.

Rusiyada da mütəxəssislər Xəzər dənizinə 11 milyondan çox kütüm balığı buraxıblar. Bu barədə "Report" "TASS"a istinadən xəbər verir. Bildirilib ki, balıqlar "Mehteb" inkubasiya zavodunda yetişdirilib. Qeyd olunub ki, son illərdə Xəzərdə kütüm ehtiyatlarının azalması müşahidə olunur. 2017-ci ildə 52 tondan çox ov edilibsə, 2021-ci ildə bu rəqəm 18,5 ton təşkil edib. Bu günə qədər kütüm ehtiyatı 211 min ton təşkil edir.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Şərq"ə açıqlamasında balıq körpələrinin su hövzələrinə buraxılmasının balıq ehtiyatlarının artırılmasında əhəmiyyətli rol oynadığını dedi:**

- Sözsüz ki, balıq ən faydalı, xeyirli qida məhsuludur. Təbii şəraitdə çoxaldığından bu məhsulun qiyməti ucuz olmalıdır. Lakin təəssüf ki, bu, müşahidə edilmir. Ümumiyyətlə, Azərbaycan əhalisinin balıq məhsullarına əlçatanlığı çox zəifdir. Dənizsahili ölkələrdə balıq ən ucuz, sərfəli ərzaq hesab edilir, əhali onu rahatlıqla əldə edə bilir. Amma bizim ölkəmizdə belə deyil. Qardaş Türkiyədə balıqçı gəmiləri sübh vaxtı sahilə yan alır, balıqçılar ovladıqları təzə balığı bazara çıxarır, uyğun qiymətə satırlar. Bizdə belə bir hal yoxdur. Marketlərdə satılan balıqlar çox baha, küçədə, bazarlarda satılanlarsa şübhəli və təhlükəlidir. Çünki nə zaman ovlandığı, hansı şəraitdə saxlandığı bilinmir. Balığın başına min oyun açırlar. Balıqçılıq sahəsi bizdə inkişaf etməyib. Xəzər dənizindən balıq ovlanır, lakin kütləyə çatdırılmır. Xəzər dənizi də çox çirklənib. Halbuki, balıqçılıq təsərrüfatının inkişafı ölkəyə böyük məbləğdə gəlir əldə etmək imkanı verər. Amma balıqçılıq monopoliyada olduğu üçün dövlət gəlir əldə etmir, əhali də balığa həsrət qalıb. Balıqları ağlasığmaz üsullarla ovlayırlar. Qeyri-insani üsullardan istifadə edilir, suya elektrik verilir... Bəzi yerlərdə böyüməmiş kiçik balıqları ovlayıb satışa çıxarırlar. Bu insafsızlıqdır, haramçılıqdır. Balıqçılıq sektoru mütləq dövlət nəzarətinə alınmalıdır. Yaxşı haldır ki, su hövzələrində indi balıqçılığı inkişaf etdirməyə başlayıblar. Xüsusən də işğaldan azad edilmiş ərazilərdəki çaylarda balıq bolluğu yaradılmasına çalışırlar. Bu işlərdə mütləq mütəxəssislər iştirak etməlidir. Hansı çay hansı balıq növünə uyğundur, harada hansı balıq növləri artıb çıxala bilər, bunları bilmək lazımdır.

**Məlahət Rzayeva**

# "Nar" BMT-nin dayanıqlı inkişaf məqsədlərini dəstəkləyən Qlobal Sazişinə qoşuldu

**"Nar" KSM istiqamətində gördüyü işləri yeni mərhələyə qaldıraraq dünyanın sosial məsuliyyətli bizneslərini bir araya toplayan Birləşmiş Millətlər Təşkilatının Qlobal Sazişinə qoşuldu.**

"Nar"ın icraçı direktoru Qunnar Pankenin bildirdiyinə görə, BMT-nin Qlobal Sazişində iştirak etməklə "Nar" sosial, iqtisadiyyat və insan rifahıüzrə korporativ məsuliyyətinidaha da sistemləşdirməyi hədəfləyir. "Uzun illərdir ki, davamlı inkişaf və məsuliyyətprinsipini rəhbər tutan bir şirkət olaraq BMT Qlobal Sazişinin bir hissəsi olmaqdan qürur duyuruq. Cəmiyyətə faydalı olmaq üçün etdiyimiz KSM layihələr ilə daha yaxşı gələcəyə öncüllük edəcəyimizə inanırıq. Bu sazişə qoşulmağımız da yolumuza sadiqliyin nümunəsidir", - deyə o qeyd edib.

"Azərbaycan cəmiyyəti getdikcə qlobal davamlılığa ümumi prioritet kimi yanaşır və bu yanaşma cəmiyyətin bütün kəsimlərini - fərdi, ailə, dövlət və müxtəlif ölçülü biznesləri və sənaye müəssisələrini əhatə edir. "Azerfon" şirkətinin BMT-nin Qlobal Sazişi üzrə öhdəlikləri buna əyani sübutdur. Bunlar hələ qarşıda duran mühüm hədəflər olduğundan, mən əminəm ki, "Nar", onun rəhbərliyi və bütün şirkət əməkdaşları Azərbaycanda korporativ davamlılığın nümunəvi şəkildə formalaşması və təşviqində aparıcı mövqe tutacaq", - deyə BMT Qlobal Sazişinin Azərbaycan üzrə rəhbəri Samir Məmmədov bildirib.

*Qeyd edək ki, BMT Qlobal Sazişinin 10 prinsipini KSM strategiyasına, əmək siyasətinə və müxtəlif prosedurlarına tətbiq etməklə bu sazişə qoşulan şirkətlər cəmiyyət və planet qarşısında məsuliyyətlərini qoruyurlar. "Nar" üçün Qlobal Sazişin dayanıqlı inkişaf prinsiplərinin ən önəmli maddələrindən olan insan hüquqları, əmək və ətraf mühit sahəsində öhdəliyi xüsusi əhəmiyyət kəsb edir. BMT Qlobal Sazişində Azərbaycanı təmsil edən ilk telekommunikasiya şirkəti olaraq, "Nar" təhsilin inkişafına dəstək, işçilər üçün rahat əmək şəraitinin yaradılması,gender bərabərliyi istiqamətindəlayihələrə dəstək verilməsinə fokuslanır.*

# Aparıcıların özbaşınalıqları ictimai rezonans yaradır

## Televiziya rəhbərliyi özü baş verənlərə dərhal mövqe sərgiləməlidir



**Azərbaycan Respublikası Audiovizual Şurası "ARB" televiziya kanalında yayımlanan "Həmin Zaur" proqramından müğənni Afşin Azərinin efirdən çıxarılması faktına münasibət bildirib. Qurumdan söylənilib ki, Şura audiovizual proqramların yayımı zamanı qanunvericiliyin pozulması hallarında hər hansı bir reaksiyanı verir.**

O da vurğulanıb ki, yaranan xoşagəlməz hala baxmayaraq, yayım zamanı qanunvericilyin pozulması faktı qeydə alınmayıb:

Lakin ictimai reaksiyanı nəzərə alaraq Şura tərəfindən ARB kanalının rəhbərliyinə müəyyən tövsiyə və izahatlar verilib, həmçinin gələcəkdə belə ictimai qınağa səbəb olan halların təkrarlanmaması üçün xəbərdarlıq ünvanlanıb.

Xatırladaq ki, aparıcı Zaur Kamal cənubi azərbaycanlı müğənni Afşin Azəri arasında gərgin anlar yaşanıb. Zaur "Həmin Zaur" verilişində qonaq olan Afşini studiyadan çıxarıb.

"Efirdən kənarda mənimlə başqa tonda danışdınız, xoşuma gəlmədi" deyərək ifaçıdan verilişi tərk etməsini istəyib. Afşin Azəri isə "sizin dedikləriniz yadıma gəlmir" deyərək etiraz fikri səsləndirib.

Zaur Kamal daha sonra "Kişilikdən deyil ki, məni görəndə kənara fırlanırsız. Mən səni bu gün efirdən çıxaracam. Sən bir də mənim proqramımda olmayacaqsan" deyərək reklam fasiləsinə çıxıb.

**Şuranın qərarını "Şərq"ə dəyərləndirən professor, telejurnalist Qulu Məhərrəmli Audiovizual Şuranın yanaşmasını mahiyyət etibarilə obyektiv qiymətləndirib:** "Dərindən təhlil etsək, hüquq pozuntuları nəzərə çarpar. Amma indiki halda Şura sadəcə televiziyaya xəbərdarlıq ünvanlayır. Şuranın müəyyən tədbir görəcəyini gözləmirəm.

Çünki tədbir görmək birbaşa televiziyanın daxili işinə qarışmaq deməkdir. Şura belə məsələlərlə bağlı televiziyanın qabaqlayıcı tədbir görməsini uyğun hesab edir. Bu təkcə bir televiziya kanalına və aparıcıya xəbərdarlıq sayılmır. Bütün telekanallara, xüsusilə şou proqramlara aiddir. Təəssüf ki, həmin proqramların aparıcılarının hamısı normativ düşüncədə deyil, davranışlarına və danışıqlarına nəzarət edə bilmirlər.

Televiziyalar elə aparıcılara münasibətdə ayıq mövqe sərgiləməlidilər. Başqa bir aparıcı da özbaşınalıq edərsə, ictimai rezonans yarana bilər".

**Aygün Tahir**

# "Mama, papa" sağ olsun"

## Samirə Əfəndi libasının qiymətini açıqlayıb



**Azərbaycanın ötənilki "Avroviziya" təmsilçisi müğənni Samirə Əfəndi libasının qiymətini açıqlayıb.**

"Şərq" xəbər verir ki, "Şou-Rum" proqramına danışan ifaçı geyiminin qiymətinin 2 min dollar olduğunu bildirib: "Lovğalanmağı sevmirəm. Bəlkə qiymətini deməyim? Göz dəyər. İki rəqəminin yanına üç sıfır və "S" işarəsi qoyaq, 2 min dollar. "Mama, papa" sağ olsun".

**Aygün Tahir**

**Elan**

Rzayev Kamran Kamil oğluna məxsus hərbi xidmətdə olduğuna dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Hüseynzadə Babək Elşən oğluna verilmiş Hərbi bilet itdiyi üçün etibarsız sayılır.



# Özünü yandırmaq çıxış yolu deyil

## Haqları tapdananlar hökumət orqanlarından, jurnalistlərdən və deputatlardan kömək istəməlidir

**Şəmkir Rayon İcra Hakimiyyətinin qarşısında intihara cəhd olub. APA-nın yerli bürosunun xəbərinə görə, Şəmkir rayonunun Yeni həyat kənd sakini, 1996-cı il təvəllüdlü Həsənov İlham Yılmaz oğlu Şəmkir Rayon İcra Hakimiyyətinin qarşısında özünə od vurub.**

Xoşbəxtlikdən intihara cəhdin qarşısı alınıb, alov söndürülüb. Yanıq xəsarətləri alan İlham Həsənov xəstəxanaya yerləşdirilib. Hadisənin səbəbləri araşdırılır.

Son zamanlar insanların müxtəlif hakimiyyət orqanlarının önündə özünə xəsarət yetirməsi, habelə özünü yandırması diqqət çəkir. Vətəndaşların öz etirazlarını bu şəkildə bildirməsi həm ürək ağrıdan, həm də sual yaradan məqamdır.

Maraqlıdır, niyə insanlar bu cür əməllərə əl atırlar, onları buna kim və nə məcbur edir?

Sualımızı cavablandıran millət vəkili Razi Nurullayev də "Şərq"ə açıqlamasında bildirib ki, insanların özünü yandırmasına, özünə xəsarət yetirməsinə yaxşı hal kimi baxmır: "Nə olursa, olsun, insan öz canına qəsd etməməlidir. İnsan bunu etməklə, öz ailəsini, uşaqlarını, qohumlarını və yaxınlarını pis vəziyyətdə qoyur. Öz vəziyyətini də daha da ağırlaşdırmış olur. Bu səbəbdən bu üsula əl atmaq düzgün deyil".

Deputat qeyd edib ki, həmin şəxsi bu hadisəni törətməyə təhrik edən səbəblər araşdırılmalıdır: "Düşünürəm ki, hər halda vətəndaşlar bu cür hərəkətlərə əl atmazdan öncə, dövlət qurumları ilə görüş keçirməlidirlər. Eyni zamanda, millət vəkillərinə müraciət etsinlər, jurnalistlərdən kömək istəsinlər. Məsələ bu və digər şəkildə araşdırılsın. Şəxsən mənə müraciət edən insanların problemlərini araşdırırıq. Amma özünü yandırmaq halı doğru yanaşma deyil. Lakin burada həmin şəxsin nə qədər haqlı olub-olmaması haqqında heç nə bilmirəm".

**Çimnaz Şahlar**

# "Hər dəfə zəhərlənmə baş verəndə "oyanırlar"

## "Ölkədə insan sağlamlığına görə ayrıca siyasət yürüdülməlidir"



**Bakıda marketdə kütləvi zəhərlənmə qeydə alınıb. Hadisə Nəsimi rayonu, Səməd Vurğun küçəsində yerləşən "Bolmart"da baş verib.**

Marketin fasadına kimyəvi tərkibli örtük vurularkən, havalandırma sistemi vasitəsilə zəhərli hava içəri daxil olub. Nəticədə işçilər zəhərlənib. TƏBİB-dən isə bildirilib ki, 14 nəfərə yerində tibbi yardım göstərilib, 14 nəfər isə Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə hospitalizasiya olunub.

**Zəhərlənmə hadisəsi ilə bağlı "Şərq"ə danışan Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bildirib ki, kimya həyatımıza, məişətimizə həddən artıq daxil olub. Azadılması istiqamətində isə heç bir iş görülmür:** "Dünyada, o cümlədən Azərbaycanda aqressiv reklam gedir. İnsanların həyatını "yüngülləşdirən" vasitələr son nəticədə zəhərlənməyə gətirib çıxarır. Bunu hiss etmirik. Sadəcə, tədrici zəhərlənmənin "qurbanlarıyıq". Qurban olmağımız aptek şəbəkəsinin çoxluğunda, poliklinika və tibb müəssisələrində insanların növbəyə durmasında nəzərə çarpır. Aidiyyəti qurumlar işin tədqiqatını aparmır. Nə üçün bu qədər aptek var? Niyə camaat növbədədir?

Əlbəttə, hökumətlərə büdcədə pul olması lazımdır. İqtisadçıları dindirəndə deyirlər ki, bu, "iqtisadi fəallıqdır". Yəni insan sağlamlığı arxa planda qalır. Beynəlxalq tədbirlərdə də dəfələrlə söyləmişəm. İnsanın uzunömürlülüyü ancaq özü üçün önəmlidir, heç bir hökumətə 80 faiz təqaüdçü lazım deyil. Belə bir şəraitdə yalnız qəfildən zəhərlənmə baş verəndə "oyanırlar".

**E.Hüseynovun qənaətincə, hökumət mükəmməl istehlakçı siyasəti yürütməlidir:** "Materilların tərkibi yaxşıca öyrənilməlidir. Azərbaycanda çoxsaylı yalançı, milyon dollarla alınmış laboratoriyalar mövcuddur. Kimyə İnstitutu, alimlər var. 26 ildir onların etiraz səsini ucaltdığını eşitməmişəm. Guya, alim tayfasıdır, çobanla bir-birinə qarışıb. Ölkədə insan sağlamlığına görə ayrıca siyasət yürüdülməlidir. Ümumiyyətlə, istehlakçıların hüquqları haqqında qanun ciddi şəkildə dəyişməlidir. Çünki qanun 1995-ci ildə təsdiqlənib, artıq köhnədir. Qərar qəbul edən adamların özləri zəhərlənməyənə qədər AİB-nin nə iş gördüyünü başa düşməyəcəklər".

**Aygün Tahir**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1991



## Çində yoluxma artdı

1,7 milyon insan karantinə alındı

**Çində koronavirusa bir gündə 300-ə yaxın yeni yoluxma hadisəsinin qeydə alındığı Anhui əyalətində 1.7 milyon insan karantinə alınıb.**

Çinin Milli Səhiyyə Komissiyası əyalətdə son sutkada 287 yeni yoluxma faktının aşkarlandığını, o cümlədən simptomları olmayan 258 nəfərin olduğunu açıqlayıb.

Ümumilikdə əyalətin 1 000-dən çox sakinində koronavirusa yoluxma qeydə alınıb.

Əyalət qubernatoru Vanq Qinqxian Anhui hökuməti tərəfindən yayımlanan bəyanatda yerli hakimiyyət orqanlarını diqqətli olmağa və ciddi şəkildə sürətli yoxlama aparmağa çağırıb.

## 96 faiz işə yaradı

Bu metodla 2 dəqiqəyə yuxuya getmək mümkündür



**Əsgərlərin istifadə etdiyi bu metodla 2 dəqiqəyə yuxuya getmək mümkündür.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, bu üsul ABŞ ordusu tərəfindən əsgərlərin döyüş meydanlarında asanlıqla yuxuya getməsi üçün istifadə edilib. Əsas məqsəd əsgərlərin gün ərzində oyaq qalması və yorğunluq səbəbindən səhv etmələrinin qarşısını almaq olub. Beləliklə, iki dəqiqə ərzində yuxuya getmək üçün bunları etməlisiniz:

1. Dil, çənə və göz ətrafındakı əzələlər daxil olmaqla üzünüzdəki əzələləri rahatlaşdırın.

2. Çiyinlərinizi bacardığınız qədər aşağı salın, sonra üst və alt qollarınızı növbə ilə aşağı salın.

3.Nəfəs alıb-verin, sinənizi rahatlaşdırın.

4. Aşağıdakı iki səhnədən birini təsəvvür etməzdən əvvəl fikrinizi təmizləmək üçün 10 saniyə ayırın: Düşünün ki, qaranlıq otaqda qara, məxmər hamakda (hamak-iki ağac arasına quraşdırılan yelləncək yataq) uzanmısınız. Təxminən 10 saniyə ərzində özünüzə davamlı olaraq "düşünmə, düşünmə, düşünmə" təklifini verin.

*Qeyd edək ki,bu metod onu 6 həftə ərzində tətbiq edən insanların 96 faizində işə yarayıb. Onlar asanlıqla yuxuya gediblər.*

**Günəş Mərd**





# Mina partlayışında ayağını itirdi

## 33 yaşlı cəsur komandir yenə cəbhəyə dönməyi arzulayır



**"Ayağım sallanırdı. Qan içindəydim. Özümü itirmədim. Çünki buna hazır idim. Bilirdim, bu, müharibədir. Hər şey gözlənilir". Bu sözləri "Daily Mail"ə müsahibəsində hazırda xəstəxanada müalicə alan Ukrayna ordusunun qadın zabiti, onbaşı Yuliya Rımarenko deyib. Yuliyanın 1 övladı var. 33 yaşlı cəsur ana müharibə şəraitində yaşananları anladıb. Yuliya ağır döyüşlər getdiyi Xarkov bölgəsində yaralanıb.**

Tank əleyhinə minanın partlaması nəticəsində ayağından ağır xəsarət alıb. İçərisində olduğu avtomobil minanın üzərindən keçərkən partlayıb. Yuliyanın ayaqları bir neçə yerdən qırılıb. Həyata qalması inanılmazdır. Ayağından yara alsa da, onları itirməyib. Bu da Yuliyanın şansıdır. Sağalması 4-6 ay çəkə bilər. Əvvəlcə Lvov şəhərində reabilitasiya kursu keçməlidir. Nə qədər ki, müalicə altındadır, 6 yaşlı qızı Kira nənələrinin yanında - Dneprdə qalacaq. Yuliya deyir ki, qısa zamanda sağalmaq və ailəsinin, qızının görüşünə getmək istəyir. Sonra isə yenidən cəbhəyə, döyüşlərə qatılacaq. Ukrayna ordusunun Yuliya kimi cəsur zabitlərə ehtiyacı var. Ukrayna ordusunun hər gün təxminən 500 əsgəri yaralanır, 100 əsgər həlak olur. Yuliya da Qərbin daha da aktivləşməsini, müharibənin tezliklə Ukraynanın xeyrinə yekunlaşmasını istəyir. "Ruslar bizi sadəcə, "yem" olaraq görür. Canlı qüvvələri bizdən qat-qat artıqdır. Amma, nə olsun, insanlıqları yoxdur. İnsana dəyər vermirlər. Ukraynalılar belə deyil. Hər şeydən əvvəl, biz öz Vətənimizdə, Vətənimiz üçün savaşırıq. Kiminsə torpağını işğal etməmişik" söyləyən Yuliya "heç nəyin əvvəlki kimi olmayacağını bilirəm. Amma yaralarım sağaldıqda yenə cəbhəyə qayıdacağam. Ümid edirəm, ovaxtadək qələbə çalmış olarıq" deyib.

**Məlahət**

## Seda Sayan qaynanası ilə foto paylaşdı

Görənlər şoka düşdü



**Seda Sayan qayınanası ilə fotosunu paylaşıb.**

**Azxeber.com xəbər verir ki, 7-ci dəfə ailə həyatı quran müğənni Seda Sayan sosial şəbəkə hesabında yeni fotosunu paylaşıb.**

**Özündən 24 yaş kiçik Çağlar Ökten ilə ailə quran 59 yaşlı Seda Sayan fotoda qayınanası ilə yer alıb.**

**Müğənni ilə qayınanasının fotosu izləyicilər tərəfindən birmənalı qarşılanmayıb, qayınananın xeyli cavan olduğu görünür.**

## Konsertinə gecikdi, yerinə Binali Yıldırım oxudu



**Türkiyəli müğənni Murad Dalkılıç ötən gün baş tutan konsertinə gecikdiyi üçün maraqlı anlar yaşanıb. Axşam.az xəbər verir ki, bu səbəbdən ölkənin baş naziri Binali Yıldırım səhnəyə çıxaraq mahnı söyləməyə başlayıb.**

**O, "Murad Dalkılıç 5 dəqiqəyə gəlir. Mən də o boşluğu doldururam" sözlərini işlədib. B.Yıldırım daha sonra "Erzincana girdim, ne güzel bağlar" mahnısını səsləndirib. Onun bu hərəkəti izləyicilər tərəfindən alqışla qarşılanıb. Nazir buna qarşılıq olaraq "Muradın yerini tuta bilmərəm. Siz sənətçini səhv saldınız. O, yoldadır, gəlir" sözlərini işlədib. İzləyicilərin istəyini qırmayan Yıldırım yenidən oxumağa davam edib.**

## Zidan tük əkdirmək üçün Türkiyəyə gəldi



**"Yuventus", "Bordo", "Real Madrid" kimi komandalarda oynayan və aktiv futbol karyerasını bitirdikdən sonra "Real Madrid"də baş məşqçi kimi çalışan Zinəddin Zidan keçəlliyinə son qoymaq qərarına gəlib.**

**Lent.az xəbər verir ki, o bunun üçün Türkiyəni seçib. 50 yaşlı məşhur keçən ay gizli şəkildə İstanbulda əməliyyat olunub.**

**O, bunun gizli qalmasını istədiyi üçün xəstəxanada bütün qeydiyyatları meneceri adına edib. İstanbulda iki həftə oteldə qalan ulduz saç transplantasiyası əməliyyatından sonra gizli şəkildə Fransaya qayıdıb.**



# Hər dəqiqə hücum...

## Cütlük qağayıların əlindən rahat yaşaya bilmir



**İnsanların dəniz sahilində sevə-sevə izləyib həzz aldığı qağayılar bəzən yırtıcı quş ola bilir. Galler bölgəsində yaşayan Dave-Nicki Baker cütlüyü qağayıların hücumlarına məruz qaldıqlarından evdən bayıra çıxa bilmirlər. Cütlük 2 il əvvəl dəniz sahilində ev alıb, sevinə-sevinə yeni mənzillərinə köçüblər.**

Lakin məskunlaşdıqları ərazinin qağayıların sevimli məkanı olduğunu bilməyiblər. Bir gün səhər damdan sürüşüb düşən qağayı yumurtasını gördükdə isə geri qayıtmaq üçün artıq çox gec olub. Məlum olub ki, evin damında qağayılar davamlı yuva qurur, yumurta qoyurlar. Yumurtaları qoruyan qağayılar Dave və Nicki başlarını mənzildən bayıra çıxarar-çıxarmaz onlara hücum edir, xəsarət yetirməyə çalışır və buna nail olurlar. Dimdikləri ilə ev sahiblərini az qala qana boyamağa çalışırlar. Cütlük bəzən mənzilə daxil olmaq üçün əməlli-başlı mücadilə verir. Qağayılarla sözün əsl mənasında döyüşməli olurlar. Evin bağçasında böyük çətir quraşdırıblar, əllərindən əsa əskik olmur. Uşaqları məktəbə yola salanda onları bayır qapısınadək ötürməli olurlar, itlərini gəzdirərkən də özlərini müdafiə etmək məcburiyyətindədirlər. Dave Baker yerli idarəçilərdən kömək istəyib: "Bu quşlar təcavüzkardır. Bağçamızda əyləşib dincələ bilmirik. Evi təmir etdirmək üçün usta da tapmırıq. Kimsə bura gəlmək istəmir. Balalarını qorumağa çalışan qağayılar çox aqressivdirlər. Birisinin yumurtalara zərər vermək istədiyini görsələr, ona hücum çəkirlər. Həm də qrup halında. Hətta yoldan ötənlərə də hücum edirlər. Biz onlara zərər vermirik. Çünki birincisi, bu bizim tərzimiz deyil, ikincisi də, onlar dövlət qoruması altındadır, onlara zərər verənlər cərimələnir. Amma bizim də rahat yaşamaq hüququmuz var. Yerli hökumətdən bu işə bir əncam çəkmələrini istəyirik. Lakin rəsmilər qağayıları insandan üstün tutur".

**Məlahət**

## Almanlar təyyarələrdən qatarlara keçirlər

Dəmir yolu sərnişinlərinin sayı sürətlə artır



**Ləğv edilən aviareyslərlə əlaqədar Almaniya hava limanlarında bu yaxınlarda yaranan qarışıqlıq dəmir yolu qatarlarına biletlərə tələbatın artmasına səbəb olub.**

Azərtac xəbər verir ki, "Der Spiegel" jurnalının bugünkü sayında dərc olunmuş məqalədə deyilir: Almaniyada indiki vəziyyətdə daha çox insan təyyarə əvəzinə qatardan istifadə edir. Dəmir yolu sərnişinlərinin sayı sürətlə artır. Eyni zamanda, Almaniyanın daxili marşrutları ilə hərəkət edən qatarlar çox populyarlıq qazanıb. Yayın əvvəlindən bəri 2019-cu ilin pandemiyadan əvvəlki eyni dövrü ilə müqayisədə 40 faizdən çox artım müşahidə olunub. Berlin və Münhen, Frankfurt və Şimali Reyn-Vestfaliya arasında uçuşlar kifayət qədər tez bron edilir. İyul və avqust ayları üçün sifarişlər dəmir yolu səyahətində davam edən tələbat artımının göstəricisidir.

Onu da qeyd edək ki, bu tələbat artımına həm də bir çox qatar səfərlərinin aviaşirkətlərinin özləri tərəfindən bron edilməsi də təsir edib. Bu, xüsusilə uçuş ləğv edildikdə və sərnişinləri təyinat yerinə vaxtında çatdırmaq üçün onların qatara köçürülməsi məqsədilə edilir.

Lakin bütün bu proseslər almanlara tamamilə xas olmayan dəqiqlik səviyyəsinin aşağı düşməsinə səbəb oldu. İyun ayında uzun məsafəli qatarların yarıdan çoxu gecikməyə başladı. Xüsusilə də gediş-gəliş çox olan yerlərdə biletlərə tələbat artımı dəqiqlik göstəricisinə müəyyən təsir göstərib.

## Maaşı gecikdiyi üçün müdiri diri-diri yandırıb



**Rusiyada Sverdlovsk vilayət məhkəməsi son dərəcə amansızlıqla qətl törətməkdə təqsirləndirilən Uralda Nijnyaya Tura şəhərinin 46 yaşlı sakininin cinayət işinə baxmağa başlayıb.**

Milli.Az bildirir ki, bu haqda İstintaq Komitəsinin regional idarəsinin mətbuat xidmətindən məlumat verilib.

Qurumdan verilən məlumata görə, 22 mart 2021-ci il tarixində qeyri-rəsmi olaraq tanışına sürücü işləyən şəxs maaşını gecikdirdiyi üçün qarajda müdiri ilə mübahisə edib. O, benzin götürüb, qarajın və müdirin üzərinə töküb, sonra onu diri-diri yandırıb. Zərərçəkmiş aldığı yanıqlardan xəstəxanada ölüb.

İstintaq zamanı hüquq-mühafizə orqanlarının əməkdaşları 20-yə yaxın dindirmə aparıblar. Psixoloji-psixiatrik ekspertiza təqsirləndirilən şəxsin sağlam olduğunu göstərib.